

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "Azərbaycan-Çin münasibətləri dostluğa və tərəfdaşlığa əsaslanır"



3

SƏS

№ 164 (6847)

12 sentyabr 2023-cü il.
Qiymətı 60 qəpik

# "Əlaqələrin genişlənməsi üçün yaxşı potensial mövcuddur"



2

*Prezident İlham Əliyev İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı nazirini qəbul edib*

# Gücsüzlüyün etirafı

5



*Paşinyanın arvadının Kiyevə səfəri və ABŞ-la manevrlər Ermənistan-Rusiya müttəfiqliyini parçaladı, İrəvan arzuolunmaz müttəfiq kimi Moskvadan uzaqlaşır*

## YAP nümayəndə heyəti Çinə səfər edib



4

## Rusiyalı ekspert: "Ermənistan Ukraynadan da pis ssenari ilə üzləşə bilər"




4

## Sevinc Osmanqızı Ermənistanın təbliğatçısı rolunu davam etdirir



14

## Forma bazarı: Satan razı, bəs alan?



15

## Qadağan olunmuş yerlərdə siqaret çəkənləri hansı cəzalar gözləyir?



16

# “Əlaqələrin genişlənməsi üçün yaxşı potensial mövcuddur”

***Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 11-də ölkəmizdə səfərdə olan İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı naziri Avi Dixteri videokonfrans formatında qəbul edib. Görüşün videokonfrans formatında keçirilməsinə səbəb İsrail nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır.***

Söhbət zamanı ikitərəfli münasibətlərimizə toxunularaq, İsrail Dövlətinin Prezidenti İsxak Hersoqun bu ilin mayında Azərbaycana rəsmi səfərinin əlaqələrimizin genişlənməsinə töhfə verdiyi bildirildi. Bir neçə gün əvvəl Azərbaycan Prezidentinin köməkçisinin İsrailə səfəri qeyd olundu, ölkəmizin İsraildə səfirliyinin açılmasının əhəmiyyəti vurğulandı.

Görüşdə kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafından və bununla bağlı təcrübə mübadiləsinin həyata keçirilməsindən məmnunluq ifadə edildi, bu sahədə əlaqələrin daha da genişlənməsi üçün yaxşı potensialın mövcud olduğu bildirildi.

Avi Dixterin səfərinin kənd təsərrüfatı sahəsində əməkdaşlığın dərinləşdirilməsinə töhfə verəcəyinə əminlik ifadə olundu.



*Prezident İlham Əliyev İsrailin kənd təsərrüfatı və kənd yerlərinin inkişafı nazirini qəbul edib*

# “Böyük Qayıdış: Qarabağ”

## *“TRT World” telekanalı Qarabağa Böyük Qayıdışla bağlı veriliş yayımlayıb*









“TRT World” telekanalı Azərbaycanın Qarabağ bölgəsində aparılan bərpa və quruculuq işlərinə həsr olunmuş “Böyük Qayıdış: Qarabağ” adlı veriliş yayımlayıb.

AZƏRTAC xəbər verir ki, regiona səfər edən telekanalın müxbiri Oubay Şahbandarın təqdimatında hazırlanan verilişdə Qarabağda işğalın ağır nəticələri, mədəni irsin məhvi, baxımsızlıq və məqsədyönlü dağıdılma nəticəsində yerlə-yeksan edilən şəhərlərin indi - 30 illik işğaldan sonra necə canlandığı nümayiş etdirilib. Verilişdə yenidən həyat bəxş olunan Ağdam, Şuşa, Laçın, Füzuli, Zəngilana geri dönən yerli sakinlərin təəssüratları, hökumət nümayəndələri, iş icraçıları, ekofəallarin görülən işlər barədə fikirləri əksini tapıb.

Verilişdə diqqətə çatdırılır ki, 30 illik işğala 44 günlük Vətən müharibəsi ilə son qoyan Azərbaycan bu gün Qarabağ bölgəsində inamlı Böyük Qayıdış Proqramına start verib. Doğma yurdlarından vaxtilə didərgin düşən məcburi köçkünlər ev-eşiklərinə geri dönür, kənd və şəhərlər müasir üslubda bərpa edilir, Qarabağda əsl yenilənmə prosesi gedir.

Müəllif reportajın əvvəlində Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün tarixinə nəzər salıb, müharibə başa çatdıqdan sonra aparılan sülh danışıqları və Ermənistanın, xüsusilə də separatçıların tutduğu qeyri-konstruktiv mövqedən bəhs edib. Sülh danışıqlarına sadiq qalan və xoş niyyət nümayiş etdirən Azərbaycanın bölgənin dirçəlməsi üçün gördüyü işlər geniş planda təqdim olunub, xüsusilə Şuşa, Zəngilan, Laçın və işğaldan sonra torpaqlarına geri dönən digər rayonların sakinlərinin dilindən Vətən sevgisi, torpağa bağlılıq, gələcəyə ümid və bütün baş verənlərə rəğmən, dinc qonşuluq şəraitində yaşamağa hazırlıq barədə fikirlər səsləndirilib. Şuşa və digər yaşayış məntəqələrində dağıdılan mədəni və dini abidələrin bərpa edildiyi əks olunan kadrlarda Şuşada yaradılmış muzeydə hələ Ulu Öndər Heydər Əliyevin dövründə burada müxtəlif mədəni




obyekt və abidələrin açılışlarından fotolar nümayiş olunub.

Verilişdə, həmçinin Ermənistanla münaqişənin həllinə dair aparılan danışıqlara yer ayrılıb, bu ilin iyulunda Azərbaycan Prezidenti İlham Əliyevin Şuşa Qlobal Media Forumunda səsləndirdiyi fikirlərə diqqət çəkilib. Dövlət başçısı tədbirdəki çıxışında Ermənistanı 28 il ərzində beynəlxalq hüquqa riayət etməyə məcbur etməyin mümkün olmadığını və bunun yalnız güc yolu ilə edildiyini vurğulayaraq deyib: “Son iki il yarım ərzində bir neçə məqam oldu və onlar birbaşa Ermənistana nümayiş etdirdi ki, bizim ərazi bütövlüyümüzü tanımasalar, biz onların ərazi bütövlüyünü tanımayacağıq. Bunun nə məna daşıdığı onlara kifayət qədər aydındır. Onlar artıq qəbul ediblər ki, Qarabağ Azərbaycandır. Bunu açıq şəkildə bəyan ediblər və artıq sənədə imza atmaq mərhələsidir”.

Reportajda regionda hadisələrin cari inkişafına da diqqət ayrılıb, Qarabağdakı ermənilərin guya blokadada olmasına dair ermənilərin beynəlxalq müstəvidə qaldırdığı hay-küy, Azərbaycan sərhədinə humanitar yardım göndərilməsi və ermənilərin Ağdam-Xankəndi marşrutu ilə yükləri qəbul etməkdən imtina etməsinə toxunulub. Qeyd edilib ki, blokadadan şikayətlənən separatçılar Ağdam-Əsgəran yolunu bağlamaqla özləri özlərini blokadaya salıblar və qəsdən Qarabağ ermənilərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasının önünə sipər çəkirlər.

Ermənistanın baş naziri Nikol Paşinyanın bu ilin mayında Moskvada keçirilən görüşdə Azərbaycanın Laçın yolunu bağlamasına dair iddialarına Azərbaycan Prezidenti İlham Əliyevin tutarlı cavabı da kadrlarda yer alır.

Dövlət başçısı qeyd edir ki, Azərbaycan heç bir dəhlizi blokadaya almayıb və Laçın-Xankəndi yoluna gəldikdə isə həmin yol açıqdır: “Sizin tanıdığınız Ermənistan və Azərbaycan sərhədində bütün beynəlxalq normalara uyğun olaraq nəzarət-buraxılış məntəqəsi qoyulub. Bu nəzarət-buraxılış məntəqəsi Rusiya sülhməramlı kontingentinin postundan 20 metr aralıda yerləşir. Bu gün həmin nəzarət-buraxılış məntəqəsindən erməni milliyyətindən olan Azərbaycan vətəndaşları Ermənistan tərəfinə sərbəst keçirlər”.

Verilişdə ərazilərin minalarla çirklənməsinin dinc əhali üçün yaratdığı təhlükə və qayıdış proseslərinə törətdiyi əngəl barədə məlumat verilib, bununla belə, Azərbaycanın quruculuq və bərpa işlərini əzmlə davam etdirdiyi, məskunlaşma prosesinin sürətləndirdiyi qeyd olunub.

Yekunda vurğulanır ki, artıq Qarabağa həyat geri dönür, insanlar öz torpaqlarında yenidən məskunlaşır, şəhər və kəndlər sürətlə bərpa edilir. Qarabağa geri dönən insanlar isə gələcəyə böyük ümidlə baxır, həyatlarını doğma torpaqda davam etdirirlər.

# "Azərbaycan-Çin münasibətləri dostluğa və tərəfdaşlığa əsaslanır"



*Tahir Budaqov YAP-ın Çinə səfər edəcək nümayəndə heyəti ilə görüşüb*



**Sentyabrın 8-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov partiyanın 2023-cü il 11-19 sentyabr tarixlərində Çin Xalq Respublikasında (ÇXR) səfərdə olacaq gənclərdən ibarət nümayəndə heyəti ilə görüşüb.**

Azərbaycan-Çin münasibətlərinin dostluğa və tərəfdaşlığa əsaslandığını vurğulayan Tahir Budaqov qeyd edib ki, iki ölkə arasında müxtəlif sahələri əhatə edən əməkdaşlığın dərinləşdirilməsi üçün əlverişli şərait və etibarlı zəmin mövcuddur. Azərbaycan-Çin münasibətlərinin hər iki ölkənin liderləri – Prezident, partiyamızın Sədri cənab İlham Əliyev ilə ÇXR-in və Çin Kommunist Partiyasının Sədri Si Cinpinin siyasi iradələri sayəsində dinamik inkişafa malik olduğunu diqqətə çatdıran YAP Sədrinin müavini ölkələrimizin ikitərəfli və beynəlxalq platformalar çərçivəsində münasibətləri inkişaf etdirərək əhəmiyyətli nailiyyətlər qazandıqlarını vurğulayıb.

Ötən il Səmərqənddə Prezident İlham Əliyev ilə Si Cinpinin görüşünün əhəmiyyətindən bəhs edən Tahir Budaqov yeni geostrateji reallıqlar fonunda Azərbaycan-Çin əməkdaşlığının inkişafının hər iki dövlət üçün prioritet olduğunu qeyd edib. Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdən sonra yaranmış yeni reallıqlardan söz açan YAP Sədrinin müavini postmüharibə dövründə bölgədə sülhə, sabitliyə və təhlükəsizliyə xidmət edən təşəbbüslərin önəmini diqqətə çatdırıb. Qeyd olunub ki, Zəngəzur dəhlizinin reallaşdırılması və Çinin irəli sürdüyü "Bir kəmər, bir yol" layihəsi çərçivəsində işbirliyi yeni çoxtərəfli əməkdaşlıq platformasının formalaşmasını təmin edəcək.

YAP Mərkəzi Aparatının rəhbəri Azərbaycan-Çin münasibətlərinin inkişafında iki ölkənin hakim partiyalarının əməkdaşlıq əlaqələrinin mühüm rolunun olduğunu diqqətə çatdırıb. Tahir Budaqov Azərbaycan Prezidenti İlham Əliyev ilə ÇXR-in Sədri Si Cinpinin siyasi iradələrinə uyğun olaraq YAP ilə Çin Kommunist Partiyası arasında əməkdaşlığın dərinləşdirilməsi istiqamətində mühüm addımların atıldığını vurğulayıb. YAP Sədrinin müavini hakim partiyaların fəal dialoqunun xalqlarımız arasında dostluq münasibətlərinin möhkəmlənməsinə, çoxşaxəli əməkdaşlığın dərinləşməsinə və bütövlükdə Azərbaycan-Çin münasibətlərinin inkişafına təkan verdiyini, qarşılıqlı səfərlərin bu baxımdan xüsusi önəm daşıdığını bildirib.

Cari ilin may ayında YAP nümayəndə heyətinin Çin Xalq Respublikasında səfərdə olduğunu və yüksəksəviyyəli, məhsuldar görüşlər keçirdiyini, istər Azərbaycan-Çin münasibətləri, istərsə də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında çoxşaxəli əməkdaşlığa dair ətraflı fikir mübadiləsinin aparıldığını xatırladan Tahir Budaqov pandemiyadan sonra ÇXR-ə rəsmi səfərə dəvət edilən ilk nümayəndə heyətinin məhz Yeni Azərbaycan Partiyasından olmasını dostluq və tərəfdaşlıq nümunəsi kimi dəyərləndirib: "Həmin səfər çərçivəsində partiyalarımız arasında təmasların intensivləşdirilməsi, əlaqələrin genişləndirilməsi və əməkdaşlığın dərinləşdirilməsi ilə əlaqədar geniş müzakirələr aparıldı. Qarşılıqlı səfərlərin davam etdirilməsinə, o cümlədən partiyalarımızı təmsil edən gənclər arasında əlaqələrin sıxlaşdırılmasına dair önəmli təklif və təşəbbüslər irəli sürüldü. 2023-cü il 11-19 sentyabr tarixlərini əhatə edəcək səfər məhz bu əməkdaşlığın mühüm tərkib hissəsidir. Səfər çərçivəsində nümayəndə heyəti önəmli görüşlər keçirəcək, o cümlədən bir sıra tədbirlərdə iştirak edəcək. Bu, partiyalar arasında ikitərəfli və çoxşaxəli münasibətlərin inkişafı ilə əlaqədar atılan mühüm addımlardan biridir".

Tahir Budaqov YAP nümayəndə heyətinin ÇXR-ə səfər proqramının zəngin olduğunu diqqətə çatdırıb. YAP Mərkəzi Aparatının rəhbəri səfərin iki ölkənin hakim partiyalarının gəncləri arasında uğurlu əməkdaşlığın, davamlı ünsiyyətin təmin olunması, qarşılıqlı fikir və təcrübə mübadiləsinin aparılması və işbirliyinə dair yol xəritəsinin müəyyənləşdirilməsi baxımından böyük əhəmiyyət kəsb etdiyini qeyd edib.

Səfərin uğurlu keçəcəyinə inamını ifadə edən YAP Sədrinin müavini nümayəndə heyətinə müvafiq tövsiyə və tapşırıqlarını verib.

Nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycanla Çin Xalq Respublikası arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini bildirib. O qeyd edib ki, YAP nümayəndə heyətinin Çinə səfəri həm ölkələr, həm də partiyalararası əlaqələrin güclənməsinə töhfə verəcək. Z.Əsgərov səfərin məhsuldar olacağına əminliyini ifadə edib.

# İran XİN-in rəsmisi: "Qarabağ Azərbaycanın bir hissəsidir"



**"Qarabağ Azərbaycanın bir hissəsidir, bu regionun əhalisinin hüquq və təhlükəsizliyi konkret çərçivədə təmin edilməlidir və bu, bizim rəsmi mövqeyimizdir." Bu sözləri İranın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Nəsir Kənani Tehranda keçirdiyi həftəlik mətbuat konfransında deyib.**

O bildirib ki rəsmi Tehran Cənubi Qafqazda baş verən prosesləri diqqətlə izləyir və dövlətlərin ərazi bütövlüyünün toxunulmazlığına tərəfdardır. Qarabağ Azərbaycanın tərkib hissəsidir və Azərbaycanın ərazi bütövlüyü tanınmalıdır.

N. Kənani Azərbaycanın Qarabağ bölgəsində keçirilən qondarma "prezident seçkiləri"nə münasibət bildirərkən vurğulayıb ki, vəziyyəti gərginləşdirə biləcək addımlardan çəkinmək lazımdır. İran vəziyyətin gərginləşməsi istiqamətində atılan addımların əleyhinədir. XİN-in sözçüsü, həmçinin vurğulayıb ki, İran Şimal qonşusu ilə sərhədlərinin təhlükəsizliyinə əmindir.

# İraq mətbuatı erməni vəhşiliyindən yazıb





Ermənistanın əsir götürdüyü Azərbaycan əsgərləri ilə vəhşicəsinə davranması haqqında İraq mətbuatında İraq-Azərbaycan Dostluq Cəmiyyətinin bəyanatı dərc olunub.

AZƏRTAC xəbər verir ki, İraqın "Mustaqbil", "Elamin", "Alnahar" saytlarında bəyanatın mətni ön planda verilib. Mətndə diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonu ərazisində əlverişsiz hava şəraiti nəticəsində zəif görmə səbəbindən yolunu azmış Azərbaycan Ordusunun iki əsgəri Hüseyn Axundov və Aqşin Bəbirov ermənilər tərəfindən girov götürülüb.



Mətbuatda nümayiş olunan foto və videoların təhlili onu göstərir ki, bu iki əsgər vəhşicəsinə işgəncələrə və təhqirlərə məruz qalıblar. Bu da bütün beynəlxalq hüququn norma və qanunlarına kəskin dərəcə ziddir.

Qeyd olunub ki, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində, Birinci Qarabağ müharibəsində 3 min 890 nəfər itkin düşmüş şəxs kimi qeydiyyata alınıb. Onlardan 3 min 171 nəfəri hərbçi, 719 nəfəri mülki şəxsdir. Mülki şəxslərdən 71-i yetkinlik yaşına çatmamış uşaq, 267-si qadın olub. İtkin düşmüş şəxslərin ümumi sayından 872 nəfərinin, o cümlədən 29 uşaq, 98 qadın və 112 ahıl insanın əsir-girov götürülməsi və ya işğal edilmiş ərazilərdə qalmasına dair təkzibedilməz məlumatlar var.

Bildirilib ki, Ermənistan Cenevrə konvensiyalarını və digər beynəlxalq müqavilələrdən irəli gələn öhdəlikləri kobud şəkildə pozur. Biz, İraqdakı Azərbaycan xalqının dostları və sevənləri, bu cinayəti pisləyirik və beynəlxalq ictimaiyyəti Ermənistan hökumətinin əməllərinə hüquqi qiymət verməyə, Azərbaycan əsgərinin dərhal və qeyd-şərtsiz azad edilməsini təmin etməyə çağırırıq.

Bu hadisə Ermənistanın qəddar cəza formalarından, qeyri-insani və ya ləyaqəti alçaldan davranışlardan istifadə etməsini, azərbaycanlılara qarşı etnik nifrət və irqi ayrı-seçkiliyi yaydığını sübuta yetirir.

Bəyanatda vurğulanıb ki, Ermənistanın Azərbaycan torpaqlarının işğalı zamanı hərbi və mülki məhbuslara, itkin düşmüş insanlara qarşı törətdiyi zorakılıqları müvafiq beynəlxalq təşkilatlar araşdırmalı və müvafiq hüquqi qiymət verməlidirlər.

# Azərbaycan ilə Çin dost və tərəfdaş ölkələrdir

## YAP nümayəndə heyəti Çinə səfər edib







Yeni Azərbaycan Partiyasının (YAP) nümayəndə heyəti Çin Xalq Respublikasında səfərdədir. Səfər çərçivəsində sentyabrın 11-də nümayəndə heyətinin Sincan-Uyğur Muxtar Vilayətinin (SUAR) Xalq Nümayəndələri Məclisinin Daimi Komistəsinin sədr müavini Mehmet Kadir ilə görüşü olub.

YAP nümayəndə heyətini salamlayan Mehmet Kadir Azərbaycan-Çin münasibətlərinin dostluğa və tərəfdaşlığa əsaslandığını, çoxşaxəli əlaqələrin yüksələn xətt üzrə inkişaf etdiyini söyləyib. O qeyd edib ki, iki ölkə arasında siyasi, iqtisadi, mədəni və humanitar əlaqələrin inkişaf etməsi məmnunluq doğurur.

Çoxşaxəli əməkdaşlığın dərinləşdirilməsi üçün geniş imkanların olduğunu diqqətə çatdıran Mehmet Kadir Çin və Azərbaycanın beynəlxalq məsələlərdə daim bir-birinə dəstək nümayiş etdirdiklərini söyləyib.

Mehmet Kadir Yeni Azərbaycan Partiyası və Çin Kommunist Partiyası arasında əməkdaşlığın, həmçinin gənclər arasında əlaqələrin genişləndirilməsinin əhəmiyyətindən bəhs edib və səfərin bu baxımdan böyük önəm daşıdığını vurğulayıb.

Dəvətə və qonaqpərvərliyə görə təşəkkürünü bildirən nümayəndə heyətinin rəhbəri, Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycan ilə Çinin dost və tərəfdaş ölkə olduqlarını diqqətə çatdırıb, ölkəmizin Çinlə münasibətlərin inkişafına mühüm əhəmiyyət verdiyini söyləyib. 1994-cü ildə Ümummilli Lider Heydər Əliyevin Çinə səfərini xatırladan Ziyafət Əsgərov bildirib ki, bu gün Azərbaycan-Çin münasibətləri hər iki ölkənin liderlərinin siyasi iradəsi ilə dinamik inkişaf edir. Z.Əsgərov qeyd edib ki, Prezident İlham Əliyevin Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Səmərqənddə keçirilən Sammiti çərçivəsində Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşü, "Bir Kəmər, Bir Yol" təşəbbüsünün üçüncü Beynəlxalq Əməkdaşlıq Forumunda iştirakı və digər mühüm amillər bu kontekstdə xüsusi vurğulanmalıdır.

Azərbaycanın 44 günlük Vətən müharibəsində möhtəşəm Qələbə qazanaraq ərazi bütövlüyünü bərpa etdiyini diqqətə çatdıran Z.Əsgərov bildirib ki, Azərbaycan Çinin ərazi bütövlüyünə, eləcə də Vahid Çin prinsipinə dəstəyini daim ifadə edib və hazırda da bu mövqe dəyişməzdir. Azərbaycanın Çinlə nəqliyyat-logistika sahəsində əlaqələrini dərinləşdirdiyini deyən nümayəndə heyətinin rəhbəri vurğulayıb ki, ölkəmiz Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə dəstəyini ifadə edib. Zəngəzur dəhlizinin reallaşdırılması isə qarşılıqlı faydalı işbirliyini daha da gücləndirəcək.

Z.Əsgərov söyləyib ki, qarşılıqlı səfərlər partiyalararası əlaqələrin inkişafına təkan verir. Nümayəndə heyətinin tərkibinin gənclərdən ibarət olduğunu diqqətə çatdıran Ziyafət Əsgərov Azərbaycanda həyata keçirilən dövlət gənclər siyasətindən bəhs edib, Yeni Azərbaycan Partiyasının gənclərin inkişafına xüsusi diqqət və qayğı göstərdiyini bildirib. Səfərin məqsədinin Çin və Azərbaycan gəncləri arasında qarşılıqlı təcrübə və fikir mübadiləsinin, faydalı əməkdaşlığın təmin edilməsi olduğunu vurğulayıb. Görüş başa çatdıqdan sonra nümayəndə heyəti mədəniyyət və turizm müəssisələrini ziyarət edib.

# Rusiyalı ekspert: "Ermənistan Ukraynadan da pis ssenari ilə üzləşə bilər"

***Rusiyalı ekspert, Transsərhəd Əməkdaşlıq Assosiasiyasının aparıcı analitiki Sergey Borovikovun "Caliber" analitik mərkəzinə müsahibəsində Ermənistanın yürütdüyü siyasətin nələrə gətirib çıxaracağı haqda danışıb. Müsahibəni oxucularımıza təqdim edirik.***




**- Bildiyiniz kimi, Ermənistan hər gün Azərbaycan mövqelərini atəşə tutmaqla yanaşı, həm də Azərbaycanla sərhədə külli miqdarda silah və hərbi texnika gətirir. Onun yeni hərbi toqquşmalara hazırlaşması ehtimalı varmı?**

- Ermənistan hazırda ABŞ-la birgə hərbi təlimlər keçirməyə hazırlaşır ki, bu da açıq şəkildə hərbçilərin və hərbi texnikanın hansısa növ yerdəyişməsini nəzərdə tutur. Bu, bir tərəfdən, digər tərəfdən isə sərhəd zonasında Ermənistan və Azərbaycanın hərbi texnikasının hərəkəti var, ona görə də bu hadisə, görünür, güzgü simmetriyası xarakteri daşıyır. Təəssüf ki, böyük ehtimalla regionda ümumi gərginliyin artması qaçılmaz olacaq.

**- Qarabağ bölgəsinin erməniləri Azərbaycan Qızıl Aypara Cəmiyyətinin xətti ilə Azərbaycandan onlara verilən ərzaq yüklərini qəbul etməkdən imtina edirlər. Xunta rəhbərliyi bu bölgənin erməni sakinlərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasına mane olur. Sizcə, bununla onlar nəyə nail olmağa çalışırlar?**

- Azərbaycandan ərzaq tədarükünə gəlincə, hesab edirəm ki, ermənilər humanitar yardımın qəbuluna öz zəifliklərinin təzahürü kimi baxırlar, ona görə də ondan imtina edirlər.

**- İrəvan Qərbə üz tutmaqla Moskvanı şantaj etməklə nəyə nail olmağa çalışır?**

- Paşinyan hökuməti əvvəlcə Qərbin təsiri və Sorosun dəstəyi ilə hakimiyyətə gəldi, ona görə də aydın idi ki, heç bir erməni maraqlarından asılı olmayaraq, Qərbin qaydaları ilə oynayacaq, əslində, indi baş verənlər budur. Bunun fonunda Ermənistanda eynilə Ukrayna ssenarisinin baş verdiyi göz qabağındadır. Vaxtilə Ukraynanın qərbyönlü hökuməti də Qərbin təsiri altında düşünülməmiş siyasət yeritdi ki, bu da ölkəni indiki fəlakətə sürüklədi. Paşinyanın Ermənistanı oxşar nəyəsə aparması üçün hər cür şans var, ancaq daha pis variantda.

**- Rusiya Xarici İşlər Nazirliyi Ermənistanı qeyri-dost addımlarda, xüsusən də, Beynəlxalq Cinayət Məhkəməsinin Roma Əsasnaməsinin ratifikasiyası prosesinə başlamaqda, Ermənistanın baş nazirinin həyat yoldaşı Anna Akopyanın Kiyevə səfərində, Ukraynaya yardım göndərməkdə və ABŞ-la Ermənistan ərazisində hərbi təlimlərin keçirilməsində ittiham edib. Rusiya müttəfiq ölkəyə nə ilə bağlı xəbərdarlıq edir?**

- Ermənistanın Rusiyaya qarşı çoxsaylı qeyri-dost addımları ölkədə qərbyönlü hökumətin və qərbyönlü təsir qüvvələrinin ardıcıl siyasətidir. Və biz başa düşməliyik ki, Ermənistanın maraqlarına zidd olan bu uzun proses səngiməyəcək. Qərb öz müttəfiqlərini asanlıqla və təbii şəkildə təslim etdi, ona görə də Rusiyaya qarşı hansısa çirkin oyunlara əl atması orada hansısa Ermənistanın mövcudluğundan qatqat vacibdir. Deməli, Ermənistanın qərbyönlü rəhbərliyi fəaliyyət göstərdikcə, bu vəziyyət davam edəcək və ermənilərin ölkədəki daxili siyasi vəziyyəti nə dərəcədə dəyişdirə biləcəkləri, açığı, mənim üçün müəmmalıdır.

**- Avrasiya layihələrindən kənarda Ermənistanın gələcəyini necə görürsünüz və bu, ümumiyyətlə, mümkündürmü?**

- Ermənistanın Avrasiya layihələrindən kənar gələcəyi mənə son dərəcə kədərli görünür. Qərbin təsiri altında yeganə AES-i bağlayacaq və onun üçün qeyri-dost şəraitdə enerji baxımından son dərəcə problemli qalacaq. Bundan sonra nə edəcəyi də bəlli deyil. Qərb bu xoşagəlməz mühitdə onu öz taleyinə buraxacaq. Müvafiq olaraq, hadisələrin inkişafı üçün belə bir ssenari mənə Ermənistan üçün intihar kimi görünür. Amma qərbyönlü hökumət, bir qayda olaraq, bundan narahat deyil və Ermənistanı sakitcə bu intihar yolu ilə apara bilər.

**- Azərbaycan Qarabağı erməni separatçılarının qalıqlarından təmizləməyə başlasa, Rusiya Federasiyasının reaksiyası necə olacaq?**

- Rusiya regionda hərbi əməliyyatların hər hansı intensivləşməsinə mənfi yanaşacaq, lakin bizim Xarici İşlər Nazirliyinin narahatlığını bildirməsindən başqa, hansısa fəaliyyət edəcəyi kifayət qədər mürəkkəb sualdır. Amma regiondakı ümumi hərbi-siyasi vəziyyəti nəzərə alsaq, bu, çətin ki, hərbi addım olsun, əksinə, bir növ mürəkkəb sövdələşmədir.

**- Moskva anti-Rusiya siyasətinə cavab olaraq İrəvana hər hansı təsir alətlərindən istifadə edəcəkmi?**

- Moskva anti-Rusiya siyasəti ilə bağlı İrəvana bəzi təsir tədbirləri tətbiq etməyə hazır olardı, lakin onun bu tədbir imkanları çox azdır. Mən Rusiya üçün heç bir vasitə və ya rıçaq görmürəm. Məsələn, Gümrüdəki hərbi baza çıxarılsa, bu, İrəvan üçün ibrətamiz addım olar, amma Qərbin də istədiyi budur. Nəticə etibarilə, maraqlar və imkanlar balansının qurulması ilə bağlı çətin vəziyyət yaranır.

Digər tərəfdən, Rusiya anlayır ki, İrəvanın qərbyönümlü hakimiyyəti əbədi olmayacaq və əgər Ermənistan müəyyən qədər öz dövlətçiliyini qoruyub saxlamaq niyyətindədirsə, bu, ancaq Avrasiyayönlü hökumətin hakimiyyətə gəlməsi ilə mümkündür. Ermənilərə lazım olub-olmamasından asılı olmayaraq, bunu özləri anlamalıdırlar. Bu, ölkənin ölüm-qalım məsələsidir.

***Tərcümə - Elçin Bayramlı***

# Gücsüzlüyün etirafı



*“Ermənistanın baş naziri Paşinyan başa düşdü ki, arvadının Kiyevə səfəri Moskva üçün cəsarətli jestdir”, Fransanın Le Monde qəzeti belə hesab edir. Və onun Zelenski ilə görüşü rusların gözündə xoş “hadisə” olmayacaq. Buna baxmayaraq, Paşinyan həyat yoldaşını Kiyevə göndərib və NATO ilə manevrlər elan edib. O, Rusiya ilə “ayrılmağa” qərar verib.*

## Paşinyanın arvadının Kiyevə səfəri və ABŞ-la manevrlər Ermənistan-Rusiya müttəfiqliyini parçaladı, İrəvan arzuolunmaz müttəfiq kimi Moskvadan uzaqlaşır



Qəzet yazır ki, Qarabağı Azərbaycanın ”hücumlarından” qorumaq məsələsində Moskvanın passivliyindən təngə gələn İrəvan Ukrayna münaqişəsi ilə bağlı əvvəlki neytral mövqeyindən əl çəkir. Əslində, nə Moskva, nə də İrəvan tərəfindən tanınmayan separatçı qurumun qarşısında Rusiyanın heç bir öhdəliyi yoxdur. KTMT çərçivəsində münasibətlər Rusiyanın Qarabağsız, yalnız Ermənistanın özünün ərazisini müdafiə etməsini nəzərdə tutur, ona görə də Paşinyanın Rusiyanı qınamağa heç bir haqqı yoxdur. Keçmiş sovet respublikası Kiyevə humanitar yardım göndərildiyini və ABŞ-la birgə hərbi təlimlər keçirəcəyini açıqlayıb və bunu artıq həyata keçirməkdədir.

Qeyd edək ki, Ermənistan ABŞ sülhməramlıları ilə “Eagle Partner 2023” birgə təlimlərinə başlayıb. ABŞ ordusunun adını açıqlamayan rəsmisinin sözlərinə görə, mərasim İrəvan yaxınlığındakı Zar təlim mərkəzində baş tutub. Təlimlərdə 85 amerikalı və 175 erməni hərbçi iştirak edir. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov deyib ki, ABŞ və Ermənistanın keçirdiyi təlimlər dərin təhlil tələb edir: “Müəyyən etmək lazımdır ki, Ermənistan hansı məqsədləri güdür. Biz bununla bağlı Ermənistanla əlaqə quracağıq”.

Qeyd edək ki, bu gündən başlanan və sentyabrın 20-dək davam edəcək Ermənistan-ABŞ birgə hərbi təlimləri rəsmi müttəfiqlər olan Rusiya və Ermənistan arasında ikitərəfli münasibətlərdə görünməmiş gərginliyə səbəb olub. Keçmişdə bu gərginlik səviyyəsinə nadir hallarda rast gəlinib. İrəvan bilərəkdən Kremlə qarşı meydan oxuyan jestlər edir. Onlardan ən sonuncusu baş nazir Paşinyanın həyat yoldaşı Anna Akopyanın Vladimir Zelenski ilə gülümsəyərək əl sıxdığı Kiyev fotosudur. Akopyan çərşənbə günü, sentyabrın 6-da Ukrayna prezidentinin həyat yoldaşı Yelena Zelenskayanın dəvəti ilə birinci xanımların və həyat yoldaşlarının psixi sağlamlıq problemlərinə dair illik sammitində iştirak etmək üçün Kiyevdə olub.

Ukrayna paytaxtına ilk səfəri zamanı Anna Akopyan Ermənistanın 2022-ci ilin fevralında münaqişə başlayandan bəri ilk dəfə olaraq Ukraynaya humanitar yardım çatdırmağa hazır olduğunu təsdiqləyib. Rusiyadan isə bu səfəri analiz edənlər köməyin kifayət qədər ”təvazökar” olduğunu və bağışlanan elektron cihazların içində nələrin gizlədildiyi düşünürlər.

”Madam” Akopyanın sosial şəbəkədəki səhifəsində Ukrayna prezidenti ilə əl sıxma fotosu, eləcə də bu humanitar yardımın elanı Rusiya-Ermənistan münasibətlərində dönüş nöqtəsidir. Ermənistan Rusiya müttəfiqindən uzaqlaşmaq qərarına gəlib və indiyədək Ukrayna münaqişəsinə qarşı nümayiş etdirdiyi neytrallıqdan əl çəkir. Bununla da Ermənistan açıq şəkildə bəyan edir ki, o, artıq Moskvanın tərəfində deyil.

### Ukraynaya kömək

Bütün sahələrdə Rusiyadan böyük asılılıqda qalan keçmiş Sovet respublikası heç vaxt Rusiyanın Ukraynadakı hərəkətlərini açıq şəkildə pisləməyib. May ayında Nikol Paşinyan artıq bu istiqamətdə addım ataraq “Ukrayna ilə münaqişədə Ermənistan vətəndaşlarının Rusiyanın müttəfiqi olmadığını” söyləməyə cəsarət edib. Amma indi ilk dəfədir ki, bu ölkə Ukraynaya dəstəyini nümayiş etdirir, baxmayaraq ki, bu, Vladimir Putini açıq şəkildə narazı salacaq. Və baş nazirin həyat yoldaşının Kiyevə səfərindən bir müddət əvvəl Ermənistan ABŞ silahlı qüvvələrinin sülhməramlı missiyalarda iştirak edən hissəsinin iştirakı ilə Birləşmiş Ştatlarla birgə hərbi təlimlər keçirəcəyini elan edərkən artıq Rusiya prezidentini qıcıqlandırmışdı. Eagle Partner 2023 adlanan bu manevrlər sentyabrın 11-dən 20-dək Zar təlim mərkəzində baş tutacaq. Ermənistan Müdafiə Nazirliyinin məlumatına görə, onlar sülhməramlı əməliyyatlarda iştirak edən ABŞ və Ermənistan ordularının həmin bölmələrinin “döyüş qarşılıqlı fəaliyyətinin səviyyəsini artırmaq” üçün nəzərdə tutulub.



Ermənistanda hərbi bazası olan Rusiya NATO ölkəsinin KTMT-nin bir üzv ölkəsinin ərazisində hərbi təlimlər keçirməsinə öz “narahatlığını” bildirib. ”Bu vəziyyətdə, təbii ki, belə təlimlərin keçirilməsi vəziyyətin sabitləşməsinə kömək etmir. Deyək ki, bu ehtiyatlılığa səbəb olur. Bu cür xəbərlər, xüsusən də indiki şəraitdə regionda qarşılıqlı etimad mühitinin möhkəmlənməsinə kömək etmir. ”, - deyə Kremlin sözçüsü Dmitri Peskov bildirib.

İrəvandakı Regional Araşdırmalar Mərkəzinin direktoru və ABŞ vətəndaşı Riçard Qiraqosyan bildirib ki, birgə hərbi təlimlərin elan edilməsi “sürpriz deyil”. “Bu, ilk belə təlim deyil, ermənilər artıq beynəlxalq koalisiyanın tərkibində ABŞ və NATO ilə birlikdə onları Əfqanıstanda, İraqda və ya Kosovoda keçiriblər”, - o qeyd edib.

### Ermənistanın narazılığı

Buna baxmayaraq, İrəvan və Moskva arasındakı münasibətlərdəki gərginliyi nəzərə alsaq, ABŞ-la birgə bu təlimlər “əhəmiyyətlidir”, Kirakosyan əlavə edir. Ukrayna münaqişəsi ilə o qədər məşğul olan, ermənilərin təhlükəsizliyinə təminat verə bilməyən Rusiyanın zəifliyi artıq ortadadır. Bu, 2020-ci ilin noyabrında Qarabağda Ermənistan və Azərbaycan qüvvələri arasında hərbi əməliyyatların başlanmasından sonra bölgəyə yerləşdirilən 2000-ə yaxın Rusiya sülhməramlısının olmasına baxmayaraq belədir. Ermənistanda münaqişə başa çatdıqdan sonra Rusiyadan məyusluq və narazılıq daha da qızışır. Halbuki Ermənistan məhz Rusiyanın himayəsi altında öz varlığını sürdürür. Çünki bu ölkənin özü ötən əsrin ikinci onilliyində, Çar Rusiyasının süqutu və bolşevik diktaturası, yəni Sovet hakimiyyəti qurulanda ”kupça” ala bilib. İrəvan öz narazılığının əlaməti olaraq yanvar ayında Rusiyanın başçılıq etdiyi keçmiş sovet respublikalarının hissələrinin regional hərbi alyansı olan Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) hərbi manevrlərinə ev sahibliyi etməkdən imtina edib. Ermənistan hökuməti həmçinin fevral ayında Vladimir Putinin həbsinə order verən Beynəlxalq Cinayət Məhkəməsinin təsis müqaviləsi olan Roma Statutunun ratifikasiya olunmasını tələb edib. Sənəd prosesi başa çatdırmaq üçün sentyabrın 1-də Ermənistan parlamentinə göndərilib.

Azərbaycan Qarabağı Ermənistanla birləşdirən Laçın yolunda sərhəd keçid məntəqəsi yaradandan sonra gərginlik daha da artıb və ermənilərin iddiasına görə, bu, Qarabağda ərzaq, dərman və yanacaq qıtlığına səbəb olub. Separatçıların dediyinə görə səkkiz aydan çox davam edən ”blokada”dan sonra ”humanitar böhran 120 min erməninin yaşadığı Qarabağı bürüyüb”. Etiraf etmək lazımdır ki, Qarabağ beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycanın bir hissəsi kimi tanınır, düzdür burada əsasən ermənilər yaşayır, amma bu gün yerli ermənilərdən çox az bir hissəsi buranın sakinləridir. Çünki separatçılıq inkişaf etdikcə, yerli azərbaycanlılar bu ərazilərdən zorla qovulduqdan sonra 1988-ci ilə qədər Qarabağda yaşayan ermənilər də ”gəlmələr”in təzyiqlərinə dözməyərək bu əraziləri tərk edib gediblər. Qarabağda bu gün yaşayan ermənilərin əksəriyyəti işğal dövründən sonra bura xarici ölkələrdən və Ermənistanda köçürülən ermənilərdir. Azərbaycan tərəfi Qarabağda reinteqrasiya prosesinin kimlərə aid olması barədə konkret mövqe nümayiş etdirib. Bu da separatçıları narahat edir. Livandan və Suriyadan, Fransa və Rusiyadan, ABŞ və İraqdan gətirilən və Qarabağda məskunlaşdırılan ermənilərin aqibəti indidən bəllidir, yəni onlar Azərbaycan ərazilərini tərk etməlidirlər.

Ermənilər iddi edirlər ki, ”Laçın dəhlizində nəqliyyatın hərəkətini və təhlükəsizliyi təmin etməli olan Rusiya sülhməramlıları missiyasını yerinə yetirə bilmədiklərini sübut etdilər”. Moskva isə mütəmadi olaraq Bakıya blokadanı aradan qaldırmağa çağırdığını, lakin hələlik heç bir nəticə olmadığını bildirir. Halbuki, üçtərəfli bəyanatda təkcə ”Laçın dəhlizi” ilə bağlı maddə yoxdur, bu sənəddə həm də sülhməramlıların Qarabağa yerləşdirilməsi ilə paralel olaraq Ermənistan silahlı qüvvələrin bütün hissələri buranı tərk etməsi də qeyd olunub.

### Paşinyan Putini “təcrid edir və zəiflədir”

Nikol Paşinyan Rusiyanı Ermənistanın maraqlarına uyğun olaraq “Laçın dəhlizinə nəzarəti saxlaya bilməməkdə” və ya “bunu etmək istəməməkdə” ittiham edib. Bir neçə gün əvvəl Ermənistanın baş naziri hətta Ermənistanın öz təhlükəsizliyinin təminatı kimi yalnız Rusiyaya arxalanaraq “strateji səhvə” yol verdiyini demişdi.

*Ardı Səh. 6*

# Gücsüzlüyün etirafı

Əvvəli-Səh-5

Nikol Paşinyan heç vaxt Vladimir Putinə son aylardakı kimi birbaşa etiraz etməyə cəsarət etməyib. Onun rəhbərliyi altında Ermənistanın biabırçı məğlubiyyətə uğradığı 2020-ci il Qarabağ müharibəsindən bəri Rusiya və Ermənistan liderləri arasında güc balansı çox fərqli olub. Bu, Ukrayna hadisələrindən əvvəl idi və Kremlin ağası daha sonra sülhpərvər və qalib kimi görünürdü. 2020-ci ildə vasitəçilik Rusiyanın Cənubi Qafqaz regionuna qayıdışını nümayiş etdirirdi. Paşinyan həmin an, əksinə, zəifləmişdi. Ukraynadakı münaqişə hər şeyi dəyişdi. Bu gün bütün göstəricilər üzrə məğlubiyyətə rəğmən, 2021-ci ildə yenidən seçilən Ermənistanın baş naziri qarşısında daha zəif və təcrid olunmuş Vladimir Putini gördü. İndi Paşinyan birdən-birə onun üçün arzuolunmaz hala gələn şimal tərəfdaşına doğru cəsarətli addımlar atmağa başlayıb və bunu davam etdirməyə hazırdır.








Amerika-erməni analitiki Riçard Kirakosyan qeyd edir ki, "İndiki Ermənistan Moskvaya yox deməyə cəsarət edib. Paşinyan ictimai rəyi Rusiyadan belə bir məsafəyə uzaqlaşmaya hazırlayır, lakin Moskvanı NATO və ya Qərblə əvəzləməyə çalışmır. Erməni strategiyası Rusiya ilə qopmağa yönəlməyib". Lakin söhbətin sonunda Kirakosyan belə yekunlaşdırır: "Bu, bir neçə onillik davam edən korkoranə itaətin sonudur, bundan sonra Rusiyanın istədiyi hər şey öz qiymətini alacaq".

Bakı da öz növbəsində 2020-ci il qələbəsindən əldə etdiyi faydaları əsas götürmək əzmindədir. Ona görə də İlham Əliyev Qarabağa, həm də indiki Ermənistanın əlində olan və "Qərbi Azərbaycan" adlandırılan bölgələrinə təzyiqləri artırmağa davam edir. Cümə axşamı Ermənistanın baş naziri yenidən həyəcan təbili çalıb. Onun sözlərinə görə, azərbaycanlılar "Qarabağla sərhəd xətti boyunca və Ermənistanla Azərbaycan sərhədində daimi hərbi gücləndirmələr" təşkil edir ki, bu da Azərbaycan qoşunlarının yeni hücumu ilə bağlı narahatlıq yaradır.

Qeyd edək ki, sentyabrın 11-də İrəvan yaxınlığındakı Zar və Armavir poliqonlarında "Qartal tərəfdaşı" Ermənistan-ABŞ sülhməramlı təlimi ilk dəfə olaraq başlayıb. Təxminən eyni vaxtda Ermənistanda KTMT-nin mavi dəbilqələrinin manevrləri planlaşdırılırdı, lakin İrəvan onları keçirməkdən imtina etdi və bir neçə gün əvvəl KTMT-dəki səlahiyyətli nümayəndəsini vəzifəsindən geri çağırdı. Bu təşkilat çərçivəsində "Sarsılmaz Qardaşlıq 2023" təlimləri 2023-cü ilin oktyabrında Ermənistan nümayəndələri olmadan Qırğızıstanda keçiriləcək.

"Qartal tərəfdaşı iki ölkədən olan əsgərlərimiz üçün taktiki səviyyədə yeni əlaqələr qurmaq və sülhməramlı əməliyyatlarda qarşılıqlı fəaliyyət qabiliyyətini artırmaq üçün mühüm fürsətdir. O, həmçinin Kanzas Milli Qvardiyasının Ermənistanla qurduğu 20 illik əlaqələrə əsaslanır", - ABŞ Ordusunun Avropa və Afrika bölməsindən polkovnik Martin O'Donnell bildirib. Öz növbəsində Ermənistan Müdafiə Nazirliyi bəyan edib ki, təlimlər sülhməramlı tapşırıqları yerinə yetirərkən münaqişə tərəfləri arasında sabitləşdirmə əməliyyatlarını əhatə edir.

Moskvada rəsmilər artıq bu manevrlərdən və İrəvanın Moskvaya dost olmayan digər addımlarından narazılıqlarını bildiriblər. Onların arasında, məsələn, respublikada Beynəlxalq Cinayət Məhkəməsinin Roma Nizamnaməsinin ratifikasiyası prosesinin başlanması, baş nazir Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyanın Ukraynaya səfəri və Ukraynaya humanitar yardımın göndərilməsi olub.

Ermənistan parlamentinin xarici əlaqələr daimi komissiyasının rəhbəri Sarkis Xandanyan bəyan edib ki, ABŞ ilə təlimlərin keçirilməsi Ermənistanın suveren qərarıdır: "Mən başa düşürəm ki, müxtəlif tərəflərin narahatlığı ola bilər və narazılıq ifadə edə bilər. Qəbul edilən qərar həm də dərinləşən Ermənistan-Amerika münasibətlərinin reaksiyası və nəticəsidir". Onun sözlərinə görə, Ermənistan bütün sahələrdə ABŞ-la münasibətləri yaxşılaşdırmağa çalışır. Təlimlər beynəlxalq sülhməramlı missiyalarda əməkdaşlığın yaxşılaşdırılmasına yönəlib.

ABŞ və NATO-dan olan tərəfdaşların erməni mavi dəbilqəliləri ilə birlikdə dünyanın müxtəlif regionlarında sülhyaratma vəzifələrini həll etməyə nə dərəcədə hazır olduqlarını söyləmək çətindir, lakin aydındır ki, bunun yaxın gələcəkdə baş verməsi ehtimalı azdır. Moskva, İrəvan və Bakı arasında 2020-ci ildə əldə edilmiş üçtərəfli razılaşmalara əsasən, Qarabağ ərazisində analoji tapşırıqlar Rusiya sülhməramlı kontingenti tərəfindən həyata keçirilir. Məsələn, Rusiya Müdafiə Nazirliyinin bir gün əvvəl dərc olunmuş məlumatında bildirilir ki, münaqişə zonasında atəşkəs rejiminə əməl olunmasına nəzarət 30 müşahidə məntəqəsində aparılır: "Sentyabrın 9-na olan məlumata görə, Rusiya sülhməramlı kontingentinin məsuliyyət zonasında hər hansı pozuntu qeydə alınmayıb. Əsgəran, Ağdərə, Xocavənd və Şuşa rayonlarında beş marşrut üzrə patrul xidməti həyata keçirilib".

Bu arada bir çox ölkələrin mətbuatı və rəsmiləri son bir-iki həftədə Qarabağ ətrafında gərginliyin artdığını qeyd ediblər. Sosial şəbəkələrdə və KİV-də münaqişə tərəflərinin Ermənistan-Azərbaycan sərhədinə silah və hərbi texnika toplanmasını əks etdirən videogörüntülər yayılır.

Rusiya Müdafiə Nazirliyi bildirib ki, "Rusiya sülhməramlılarının təhlükəsizliyini təmin etmək və mümkün insidentlərin qarşısını almaq üçün Azərbaycan və Ermənistan silahlı qüvvələrinin baş qərargahları ilə davamlı qarşılıqlı əlaqə saxlanılır". "İrəvanın qeyri-dost hərəkətlərinə baxmayaraq, Rusiyanın Qarabağ münaqişəsi zonasında Rusiya sülhməramlılarının kontingentinin mövcudluğu sayəsində Cənubi Qafqazda rolu ardıcıl olaraq yüksək və həlledici olaraq qalır", - hərbi ekspert, general-leytenant Yuri Netkaçev deyib.

Xatırladaq ki, Azərbaycan Xarici İşlər Nazirliyi Qarabağda keçirilən seçkiləri beynəlxalq hüququn prinsiplərini pozan qanunsuz fəaliyyət adlandırıb. "Ancaq bunlar daha çox siyasi, diplomatik məsələlərdir. Və orada hərbi eskalasiya artıq kulminasiya nöqtəsinə çatıb. Təkcə Rusiya deyil, Cənubi Qafqazda sərhədləri dəyişmək istəməyən və bu kimi məsələləri danışıqlar masası arxasında həll etmək niyyətində olan İran da Ermənistanla Azərbaycan arasında yeni müharibənin qarşısını ala bilər. ABŞ və ya NATO qüvvələrinin Qarabağ münaqişəsinə mümkün müdaxiləsinə gəlincə, bu, çətin ki... Bunlara İran və Rusiya, o cümlədən hərbi yolla imkan verməyəcək", - Netkaçev hesab edir. Ekspert öz qənaətlərini təsdiqləmək üçün Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskovun Rusiyanın Cənubi Qafqazı könüllü olaraq tərk etməsi ilə bağlı Nikol Paşinyanın sözlərinə cavab olaraq, bunun heç də düzgün olmadığını söyləyib.

Kremlin sözçüsü Moskvanın Ermənistanın hərəkətsizliyi ilə bağlı tənqidləri rədd edib və bildirib ki, "Rusiya təhlükəsizliyin təminatçısı kimi öz funksiyalarını yerinə yetirməkdə davam edir". Eyni zamanda, Peskov adi formulunu təkrarlayıb: "Rusiya həm Yerevan, həm də Bakı ilə çox diqqətli, ciddi və konstruktiv işləməyə davam edir". Gücsüzlüyün etirafı kimi səslənən cavab.

***V.VƏLİYEV***

## Gənc partiya fəalları Heydər Əliyev Mərkəzini ziyarət ediblər






"Heydər Əliyev İli" ilə əlaqədar Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatı tərəfindən hazırlanan və İdarə Heyətinin qərarı ilə təsdiqlənən Tədbirlər Planı çərçivəsində Ulu Öndərin zəngin dövlətçilik irsinin, əbədiyaşar ideyalarının öyrənilməsi və yeni nəslə aşılanması, xalqımız və dövlətimiz qarşısında misilsiz xidmətlərinin geniş ictimaiyyətə çatdırılması məqsədilə ardıcıl tədbirlər həyata keçirilir.

2023-cü il sentyabrın 9-da YAP Biləsuvar rayon təşkilatı tərəfindən gənc partiya fəallarının iştirakı ilə Biləsuvar rayon Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil olunub.

Əvvəlcə Ulu Öndərin abidəsi ziyarət olunaraq, önünə gül dəstələri düzülüb. Mərkəzdə gənclərə müstəqil Azərbaycan dövlətinin memarı, Ümummilli Lider Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyəti haqqında geniş məlumat verilib. Gənclər eksponat, fotoşəkil və kitablarla tanış olublar.

Daha sonra Heydər Əliyev Mərkəzində Ulu Öndərin həyat və fəaliyyətindən bəhs edən sənədli film nümayiş etdirilib. Sonda xatirə fotosu çəkdirilib.

# Güclü külək insanları necə öldürür?



***Hava hərəkəti olan külək insanlar üçün böyük əhəmiyyət kəsb edir. Belə ki, vacib hava hadisələrindən biri olan küləyin həyatımıza bir çox təsiri var. Bəs, bu təsirlər nələrdir? Xüsusilə, bərpa olunan enerji mənbəyi olduğu üçün havanın temperaturunu tarazlaşdırmaq baxımından külək ciddi potensiala malikdir.***



## Külək necə əmələ gəlir? Küləyin əmələ gəlməsi necə baş verir və hansı hadisələrə səbəb olur?

SİA mövzu ilə bağlı araşdırma aparıb.

Külək mühüm hava hərəkətidir. Demək olar ki, hər mövsümdə müşahidə olunur və olduğu yerə ciddi təsir göstərir. Küləyin molekulyar quruluşu sudan daha dağınıqdır. Bu vəziyyətdə külək dağılır və havada maye olur. Dağılmış molekulyar quruluşa görə isə havanı görmək mümkün deyil. Hava hərəkətləri ilə meydana gələn külək görülə bilməz, ancaq hiss edilə bilər.

## Külək necə əmələ gəlir?

Külək hava yüksək təzyiqdən aşağı təzyiqli ərazilərə keçdikdə baş verir. Bu halda havanın yerdəyişməsini külək adlandırmaq olar. Bir-birini itələmək və ya bir-birini sıxışdırmaq nəticəsində baş verən küləyin mövsümi, daimi və yerli külək kimi müxtəlif növləri var. Bu küləklərin bəziləri il boyu davam edərkən, bəziləri qısa müddətdə bitir. Küləyin əmələ gəlməsində ən böyük amil temperatur fərqidir. Küləyin hərəkəti regional temperatur fərqləri ilə təmin edilir. Bir bölgədə temperatur artdıqca, havanın molekulyar strukturunda olan atomlar daha sürətli hərəkət edir və beləliklə enerjiləri artır.

## Külək formalaşması

Küləyin əmələ gəlməsinə ən mühüm təsir temperatur fərqidir. Temperaturun təsiri nəticəsində havanın yerdəyişməsi nəticəsində təzyiq fərqi yaranır. Bu, küləyin yaranmasında əsas amildir. Temperatur fərqi nə qədər yüksək olarsa, küləyin intensivliyi də bir o qədər çox olar. Soyuq havada atomların hərəkəti yavaşladığı üçün enerjiləri də buna uyğun olaraq azalır. Külək isti havada daha yüngül effekt yaratsa da, soyuq havada daha da ağırlaşır. Küləyin intensivliyi mövsümi şəraitdən asılı olaraq dəyişir.

## Külək formalaşması

Küləyin əmələ gəlməsinə ən mühüm təsir temperatur fərqidir. Temperaturun təsiri nəticəsində havanın yerdəyişməsi nəticəsində təzyiq fərqi yaranır. Bu, küləyin yaranmasında əsas amildir. Temperatur fərqi nə qədər yüksək olarsa, küləyin intensivliyi də bir o qədər çox olar. Soyuq havada atomların hərəkəti



yavaşladığı üçün enerjiləri də buna uyğun olaraq azalır. Külək isti havada daha yüngül effekt yaratsa da, soyuq havada daha da ağırlaşır. Küləyin intensivliyi mövsümi şəraitdən asılı olaraq dəyişir.

4 sentyabr 2023-cü il: Güclü külək Şəkidə yaşayış evlərinə ciddi ziyan vurub. Nəticədə, bəzi evlərin dam örtükləri uçub. Ərazidə elektrik dirəkləri, yenicə inşa olunmuş daş hasarlar aşıb. Yağış suları evlərə dolub.

7 sentyabr 2023-cü il: Güclü külək Balakən rayonunda 80-dən çox evin dam örtüyünü uçurub. Sentyabrın 6-da axşam saatlarından rayon ərazisində güclü külək əsib. Nəticədə, rayonun Katex kəndində 80 evin, şəhər ərazisində isə 5 mərtəbəli yaşayış binasının dam örtüyü dağılıb. Bundan başqa, şəhər ərazisində irigövdəli ağacın aşması nəticəsində 2 avtomobilə ziyan dəyib.

10 noyabr 2021-ci il: Bakıda hava şəraiti ilə əlaqədar küləyin fəsadlarından yeddi nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alıb. 3 kişi, 4 qadın müxtəlif dərəcəli bədən xəsarətləri alıb. Xəsarət alanlar tibbi yardım göstərilməsi üçün yaxınlıqdakı xəstəxanalara çatdırılıblar. 7 mart 2021-ci il: Bakıda əsən güclü külək faciəyə səbəb olub. 28 May metrosu qarşısından keçən bir xanımın başına dəmir parçası düşüb. Şəxs yerindəcə vəfat edib.

19 avqust 2022-ci il: Avstriyanın cənub regionlarında baş verən güclü fırtına iki uşağın ölümünə səbəb olub. Sankt Andre gölü kənarında güclü küləyin aşırdığı ağaclar iki uşağın ölümünə, bir neçə nəfərin yaralanmasına səbəb olub. Təbii fəlakət nəticəsində federal əyalətdə 15 min mənzilin elektrik enerjisi ilə təminatı kəsilib. Məlumata görə, bir sıra bölgələrdə dəmiryolu nəqliyyatının fəaliyyətində fasilələr yaranıb.

31 may 2023-cü il: Mayın 31-də güclü külək Ağcabədi rayonunun yaşayış məntəqələrində bir sıra fəsadlar törədib. Külək nəticəsində rayon ərazisində ağaclar aşıb, fərdi evlərə və yardımçı binalara, kənd təsərrüfatına ziyan dəyib, yaşayış məntəqələrinin bir çoxunda elektrik enerjisinin verilməsində fasilə yaranıb. Rayonun Hindarx qəsəbə sakini, 1963-cü il təvəllüdlü Mamedov Allahverən Qəzənfər oğlu küləyin aşırdığı tut ağacının altında qalaraq dünyasını dəyişib.



9 fevral 2023-cü il: Bakıda əsən güclü külək bir sıra fəsadlara yol açıb. Bir çox yerlərdə güclü külək ağacları və dəmir çəpərləri aşırıb. Belə hadisələrdən biri də Bakının Xətai prospekti, Elmi-Tədqiqat Tibbi Bərpa İnstitutunun (keçmiş Kirov institutu) qarşısında yaşanıb. Belə ki, güclü külək ərazidəki dəmir çəpərləri aşırıb. Xoşbəxtlikdən ölüm və ya xəsarət halı olmayıb.

1 aprel 2017-ci il: Azərbaycanda müşahidə edilən güclü külək ölümə səbəb olub. Ölüm faktı Neftçalada qeydə alınıb. Külək 56 yaşlı kişini həyatdan edib. Bədbəxt hadisə axşam saatlarında Haqverdili kəndində qeydə alınıb. Belə ki, həmin kəndin sakini, 56 yaşlı Cəfər Hacıbaba oğlu Səlimov güclü küləyin aşırdığı çinar ağacının altında qalaraq dünyasını dəyişib.

24 fevral 2017-ci il: Bərdə rayonunda güclü külək bir nəfərin ölümünə səbəb olub. Hadisə səhər saatlarında Bərdə rayonundakı tikinti materialları bazarında baş verib. Yaxınlarının sözlərinə görə, güclü küləyin aşırdığı dəmir darvaza Bərdə rayon Kələntərli kənd sakini 22 yaşlı Muxtarov Eyyub Sadiq oglunun üzərinə düşüb. Nəticədə ağır xəsarət alan Eyyub Muxtarov dünyaşını dəyişib. Qeyd edək ki, Eyyub Muxtarov orada dəmir malyarı işləyirmiş.

19 iyun 2023-cü il: Qaxda da güclü külək və yağış fəsadlara səbəb olub. İri gövdəli ağaclar aşaraq yolları bağlayıb, elektrik və telefon xətlərini sıradan çıxarıb. Nəticədə şəhər ərazisində elektrik enerjisinin verilişində fasilələr yaranıb. Aidiyyəti qurumlar fəsadların aradan qaldırılması istiqamətində işlər aparıb.

17 fevral 2023-cü il: Göyçay rayonunda havanın küləkli olması yanğınlara səbəb olub. Gün ərzində rayonda 7 yanğın hadisəsi qeydə alınıb. Göyçay rayonunun Kürdəmiş kəndində 100 kvadratmetr ərazidə kol-kos, Alpout kəndində yol kənarı çəpərlər, Çaxırlı kəndində kanal ətrafı kolluqlar yanıb. Şıxbəyli kəndində Beşirov Rüstəm Azər oğluna məxsus bağ sahəsində, Kürdəmiş kəndində Məmmədov Paşa Məhəmməd oğluna məxsus ərazidə yanğın olub. 60 ədəd xurma ağacı yanıb. Bundan başqa, ərazidə elektrik naqillərinin də yandığı bildirilir. Rayonun Potu kəndində də yanğın olub, kol-kos yanıb. Yanğınların genişlənməsinin qarşısı alınıb, alov söndürülüb.



24 aprel 2018-ci il: İngiltərənin Esseks qraflığında baş tutan yarmarkada güclü külək oyuncaq qəsri havaya qaldırıb. Hadisə zamanı yeddi yaşlı Sammer Qrant qəsrin içində olub.

Azyaşlı qızın atası insident zamanı heç nə edə bilməyib. O, yalnız ”Mənim qızım oradadır” deyərək qışqırıb və uçan oyuncaq qəsri saxlamağa çalışıb. Oyuncaq 300 metr hündürlükdən yerə çırpılıb. Hadisə nəticəsində azyaşlı ölüb. Qızın ölümündə yarmarkanın rəhbərləri Uilyam və Şelbi Terston ittiham olunur. Onların oyuncaq qəsri yerə düzgün bağlamadığı bildirilib. Cütlüyün sözlərinə görə, güclü külək səbəbindən onlar qəsri yığışdırmaq istəyib, ancaq bundan əvvəl azyaşlı qız orada bir neçə dəqiqə oynamaq istədiyini bildirib.

Uilyam və Şelbiyə qarşı ehtiyatsızlıqdan qəsdən adam öldürmə və xidməti vəzifələrinin yerinə yetirilməməsi ittihamları irəli sürülüb.

2 sentyabr 2023-cü il: Bakıda 77 yaşlı kişi bədbəxt hadisə nəticəsində ölüb. Hadisə Lökbatan qəsəbəsində qeydə alınıb.

Qəsəbə sakini, 77 yaşlı Əhəd Abdullayev güclü külək nəticəsində ağacdan yıxılıb. Hadisə yerinə gələn təcili yardım ilə xəstəxanaya aparılan Ə. Abdullayev yolda dünyasını dəyişib.

10 sentyabr 2023-cü il: Güclü külək Sumqayıtda bir sıra fəsadlar törədib. Şəhərin Nizami küçəsində iri gövdəli qovaq ağacı yola aşıb, nəticədə avtomobillərin hərəkətində maneələr yaranıb. Şəhərin 20-ci məhəllə adlanan ərazisində isə şam ağacı işıq dirəyinin üstünə aşıb, nəticədə mənzillərə elektrik enerjisinin verilməsində fasilə yaranıb. Güclü külək Çerkassi küçəsində də fəsad törədib. Belə ki, iri ağac gövdəsindən qopub. Lermontov küçəsində isə söyüd ağacı avtomobilin üzərinə aşıb. Hadisələrin baş verdiyi ərazilərə Sumqayıt şəhər İcra Hakimiyyəti Mənzil Kommunal Təsərrüfatı İstehsalat Birliyinin Yaşıllaşdırma idarəsinini əməkdaşları cəlb edilib, ağaclar doğranaraq ərazidən daşınıb.

Bütün bu yaşananları nəzərə alaraq, bəs güclü küləklərdən necə qorunmalıyıq?

- Pəncərələri və şüşələri bağlayın. Nərdivanlar, bağ mebelləri və ya pəncərə və şüşələri qıra biləcək hər hansı əşyaları bir yerə bərkidib bağlayın.

- Qapıları yaxşı-yaxşı bağlayın. Qapıları və pəncərələri, xüsusilə evin külək vuran tərəfində olanları və qaraj qapıları kimi böyük qapıları bağlayın.

- Əgər varsa, avtomobilləri qarajda park edin. Onları divar və ağaclardan uzaq tutun.

- Elektrik və telefon naqillərindən ehtiyatlı olun. Yerə düşmüş və ya hələ də sallanan elektrik/telefon kabellərinə toxunmayın.

- Mümkün qədər içəridə qalın.



***Ayşən Vəli***

ARAŞDIRMA












# Bəşəriyyət erməni vəhşiliyinə etiraza başlayır




***Dünya xalqları arasında qeyd edilən fakt ondan ibarətdir ki, erməni toplumu bəşəriyyət üçün təhlükə mənbəyidir. Yalnız ona görə yox ki, bu toplumu terrorçudur, həm də ermənilər regionda sülhün, təhlükəsizliyin təmin olunmasına mane olan anormal varlıqdır. İstəsən də bu toplumu yer üzündən silmək mümkün deyil. Çünki həyasızlığı, yaltaqlığı, özlərini yazıq qismində göstərməyə çalışmaları onların soyunun, kökünün kəsilməsinə imkan vermir. Hazırkı sivil, demokratik dünya düzənin yaranması erməni toplumunun əl qolunu bir qədər də geniş açmasına imkan verib.***

Bəlkə də, orta əslər olsa idi, erməni vəhşi toplumunun varlığına son qoymaq olardı. Tarixdə belə faktlar kifayət qədərdir. Yəni, işğallar nəticəsində o dövrdə mövcud olmuş neçə-neçə millət mövcudluğunu tamamilə itirib. Sadəcə, erməni toplumu müxtəlif hiyləgər vasitələrdən istifadə etdiyindən, bu günümüzə qədər gəlib çata bilmişlər. Böyük fateh Teymurləngin bir fikrini qeyd etmək yerinə düşərdi: "Ermənilərin götüyünü kəsmədiyimə görə, gələcək nəsillər yəqin ki, məni qınayacaqlar". Bəli, biz bugünkü nəsil Teymurləngi, Şah İsmayıl Xətaini, Nadir Şahı və digər sərkərdələri qınayırıq, erməni toplumunun kötüyünü vaxtında kəsməydilər, bu gün bizlər erməni terrorunun qurbanı olub, əziyyət çəkməzdik. Etinasızlıq göstərilməsindən bəhrələnən ermənilər böyük güclərin hərbi, siyasi dəstəyinə arxalanmaqla Cənubi Qafqazda yerləşdilər. Möhkəmləndikdən sonra isə azərbaycanlılara qarşı qətliamlar həyata keçirdilər, evləri dağıtdılar, şəhərləri, kəndləri viran etdilər. Nəticədə, son iki yüz il ərzində 2 milyon azərbaycanlı erməni vəhşiliyinin qurbanı oldu, İrəvanı özününküləşdirdilər, Qafanı, Görusu, Dərələyəzi və digər onlarla yaşayış məskənimizi işğal etdilər.

### Ermənilərin "böyük Ermənistan" ideyasını həyata keçirmələri ilə bağlı təbliğatları Qafqaz bölgəsini milli qırğınlara gətirib çıxarmışdır

Erməni toplumu bəzi güclərin dəstəyi ilə Azərbaycan ərazilərinə köçürülməsi prosesi on doqquzuncu əsrin sonu iyirminci əsrin əvvəllərində daha sürətlə aparılmışdır. Nəticədə, XX əsrin əvvəllərində xarici ölkələrdən köçürülən ermənilərin sayının bir milyona çatması bölgədə demokratik vəziyyətin tamamilə dəyişməsinə səbəb olmuşdur. Erməni daşnak millətçilərinin "böyük Ermənistan" ideyasını həyata keçirmələri ilə bağlı təbliğatları Qafqaz bölgəsini milli qırğınlara gətirib çıxarmışdır. 1905-1906-cı illərdə Bakıda, Naxçıvanda, İrəvanda, Zəngəzurda, Gəncədə və Cənubi Azərbaycanda bu qırğınlar davam etmişdir. Erməni daşnaq-quldur dəstələri 1905-ci il noyabrın 28-də Qarabağ bölgəsinin şəhər və kəndlərini yandıraraq, uşaqlara, qadınlara və qocalara qarşı görünməmiş vəhşiliklər törətmişlər. Erməni quldur dəstələri yalnız Şuşa, Cavanşir və Cəbrayıl qəzalarında 75-ə qədər Azərbaycan kəndini, İrəvan və Zəngəzur quberniyalarında isə 200-dən çox yaşayış məntəqəsini dağıtmış əhalini vəhşicəsinə qətlə yetirmişlər. Erməni terrorçuları hələ 1904-cü ilin sentyabrında Bakı şəhərində bir neçə azərbaycanlını qətlə yetirmişlər.

Bu qətllər isə ermənilər tərəfindən xəbərdarlıq xarakteri daşımışdır. 1905-ci il fevralın 5-də erməni terrorçu dəstələri Bakı qəzası Sabunçu kəndinin sakini Ağarza Babayevi öldürmüşlər. Qətl iğtişaş yaratmaq məqsədilə törədilmişdir. Elə həmin gün erməni quldur dəstələri realnı və texniki məktəblərin 7-ci sinif şagirdləri Yakov Lebedivi və İvan Volkovu öldürmüşlər. Erməni alimi C.Libardyanın yazdığına görə, üç il ərzində (1904-1906-cı illər) erməni terrorçuları 105 "siyasi qətl" törətmişlər. Bunların 56-sı ermənilərə qarşı, 32-si siyasi bəhanələrlə həm ruslara, həm də türk məmurlarına və zabitlərinə qarşı 2-3-ü təsadüfən heç bir səbəb olmadan, qalanları isə bankirlərə və sələmçilərə qarşı olmuşdur. Alimlər Libardiyanın göstərdiyi rəqəmləri araşdıraraq yazmışlar: "... Bu qısa üçillik dövrdə erməni terrorçuları tərəfindən öldürülmüş, erməni mənşəli hər iki adamla yanaşı, bir qeyri-erməni mənşəli şəxs də öldürülmüşdür. Məqsəd dəyişməyibdir: dinc ermənilərin böyük əksəriyyətini qəsdən qorxutmaq, onları terrorçuların fəaliyyətini təsviq etmək məcburiyyətində qoymaq".1905-ci ilin fevralın 6-da Bakıda Mixaylov xəstəxanasının sənədlərinə görə, erməni milyonçuları Balabek Lalayevin, Artyom Babayantsın, İsay Ter Osipovun və başqa maqnatların havadarlığı sayəsində terror qrupu 18 adamı öldürmüş və 33 nəfəri yaralamışdır. Onların 34-ü azərbaycanlı, 6-sı rus, 6-sı erməni, 5-i isə başqa millətin nümayəndələridir.




1905-ci ilin fevralın 7-də erməni terror təşkilatı Bakıda 100-dək dinc vətəndaşımızı öldürmüş və yaralamışdır. Erməni quldur dəstələri 1905-ci ilin fevralın 9-da Bakı sakinlərini qətl və qarətlərə məruz qoymuşdular. Erməni dəstələri kütləvi qırğınlar törətdikdən sonra varlı ermənilərin (Balabek, Lalayev, Artyom Babayants, Akop Muradyan, Karen Saakyants və b.) evlərinə yığışmış, onların pəncərələrindən və damlarından şəhərin küçələrinə atəş açmış, ingilis, fransız istehsalı olan bombalar, qumbaralar atmışlar. 1905-ci ilin qırğınları tarixə "Bakı şəhərində qanlı qətliam" kimi düşmüşdür. "Daşnaksutyun" beynəlxalq erməni terror təşkilatının idarə etdiyi quldur dəstələri 1905-ci ilin 20-21 fevralında İrəvan şəhərinin müsəlman sakinlərinə qarşı insanlığa yaraşmayan hərəkətlər edərək qırğınlar, vəhşiliklər etmişlər. Dinc əhalinin vəhşicəsinə öldürülməsi bu amansız hadisənin şahidlərini dəhşətə gətirmişdir. Ümummilli Liderimiz Heydər Əliyev bu hadisələrə belə qiymət vermişdir: "Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırırlar. Böyük humanist ideallara xidmət edən Azərbaycan ədəbiyyatı və mədəniyyəti ruhunda tərbiyə olunmuş yeni nəslimiz ekstremist erməni ideologiyasının təqiblərinə məruz qalır. Azərbaycan xalqının mənəviyyatına, milli qüruruna və mənliyinə yönəlmiş böhtanlar siyasi və hərbi təcavüz üçün ideoloji zəmin yaradır".

*Dinc əhalinin vəhşicəsinə öldürülməsi bu amansız hadisənin şahidlərini dəhşətə gətirmişdir. Ümummilli Liderimiz Heydər Əliyev bu hadisələrə belə qiymət vermişdir: "Saxtalaşdırılmış erməni tarixi gənc ermənilərin şovinist ruhunda böyüməsinə zəmin yaratmaq üçün dövlət siyasəti səviyyəsinə qaldırırlar.*

## Xaricdən gətirilən erməni quldurları qırğınlarda fəal iştirak etmişlər

1905-ci il mayın 11-də Bakı şəhərində baş erməni terrorçusu Qafqaz xalqları arasında dostluq əlaqələri ruhunda çıxış edən knyaz M.A. Nakaşidzeni və Q. Takiyeskilini qətlə yetirdilər. Bu hadisəni şahid R.R. Subinski öz xatirələrində göstərmişdir. O dövrün məlumatlarına əsasən, qatillərdən biri Dro ləqəbli Drastamat Xanayan idi. Bu hadisələrdən əvvəl Dro Zəngəzur mahalında erməni quldur dəstələrinin tərkibində dinc azərbaycanlılara qarşı qanlı qırğınlarda yaxından iştirak etmişdi. Erməni daşnak quldarları 1905-ci ilin mayın 24-də İrəvan quberniyasında dinc azərbaycanlılara atəş açdılar. Qarışılıqdan istifadə erməni saqqallıları on bir vətəndaş-dörd qadın, iki uşaq və beş kişini qətlə yetirdilər. Bu qanlı hadisələrdən doymayan erməni quldur dəstələri 1905-ci ilin mayında Naxçıvan torpağına hücum edərək dinc əhaliyə qarşı qanlı divan törətdilər. Çoxlu sayda qadın, qoca və uşağı öldürdülər. Ermənilər 1905-ci ildə Zəngəzur bölgəsində də onlarca adam öldürülmüş, evlərə od vuraraq yandırmışlar.

## Ermənilər insanlara işgəncələr verib, sonra da qətlə yetirmişlər

Bütün silah növləri ilə təmin olunmuş erməni quldur dəstələri 1905-ci ilin 2 iyununda Mənkus müsəlman kəndinə hücum etmişlər. Silahsız kəndlilər ailələrini götürüb qaçmağa məcbur olmuşlar. Kənddə qoca və əlil olan 80 yaşlı bir sakin erməni quldurlarının əlinə keçmişdir. Erməni quldurları şişləri qızdıraraq işgəncələr verməklə onu öldürmüşlər. Bu vəhşilikləri ermənilər 1988-1989-cu illərdə Ermənistan torpaqlarından qovulan azərbaycanlılar üzərində də həyata keçirmişdilər. Erməni daşnaq dəstələri 1905-ci il iyunun 8-də İrəvan yaxınlığındakı Eçmiədzin qəzasındakı Uşu azərbaycanlı kəndini mühasirəyə almış, buranı işğal etdikdən sonra kişilərin başlarını kəsmiş, südəmər uşaqları süngülərə keçirmişlər. Bu basqın zamanı kəndin məscidi yandırılmışdır. Ermənilər səhərisi Eçmiədzin qəzasındakı Persi, Nazzevan, Kiçik kənd, Kötüklü, Qoşabulaq və İrgu azərbaycanlı kəndlərini də yandırmış, məscidlərə od vurmuş və insanlığa yaraşmayan hərəkətlər edərək murdarlamışlar. Erməni daşnaq dəstələri öz çirkin əməllərindən əl çəkməyərək 1905-ci ilin avqustun sonlarına yaxın Bakı əhalisinə qarşı dəhşətli qırğınlar törətdilər. 1905-ci ilin avqustun 8-də 300-dən çox erməni daşnakı Şuşa qəzasının Vənd kəndinin karvan dəstələrinə hücum etdilər. Çoxlu tacir öldürüldü, əmlakçıları talan edildi. Kəndin sakini Abbas bəyin oğlunu, qardaşını və bir neçə nökərnaibini qətlə yetirdilər. Onların törətdikləri qanlı qırğınlarının məqsədi və yerli əhalini Şuşanı və Qarabağın dağlıq hissəsinin digər ərazilərini tərk etməyə məcbur etmək idi. Ermənilərin piyada və süvari dəstələri 1905-ci ilin oktyabrın 3-də Azərbaycanın Sırxavənd müsəlman kəndinə hücum təşkil etdilər.Erməni terrorçu dəstələri 1905-ci il noyabrın 21-də Tiflis əhalisinə qanlı və amansız divan tutaraq onları vəhşicəsinə qətlə yetirmişlər. Qırğında çoxlu sayda azərbaycanlı da işgəncələrlə öldürmüşlər. 1906-cı ilin yanvarın 1-dən erməni daşnak dəstələri azərbaycanlı kəndi Papravəndə hücuma keçdilər. Kənd işğal olundu, qılıncla yarıldı, hələ dünyaya gəlməmiş körpələrin başlarını vurdular.

Qırğına erməni quldur, qulağı kəsik Andranik Ozanyan başçılıq edirdi. Hələ əsrin əvvəllərində Rusiyanın Ərzurumdakı konsula general Q.Mayevski onun haqqında yazmışdı: "1901-ci il qışın əvvəllərində Andranik adlı birisinin erməni quldur dəstəsi Muş həndəvərində peyda olmuşdur".1906-cı il iyulun 12-də erməni quldur dəstələri yaxınlığındakı erməni kəndlərindən 10 min nəfərə yaxın dəstə ilə Şuşa üzərinə hücuma keçdilər. Ərazidə döyüşlər beş gün davam etdi. Bütün evlərə bombalar yağdırıldı. Südəmər körpələri beşiklə birlikdə yandırır, anaların başını daşa çırpırdılar. 1905-1906-cı illərdə erməni bandaları Qarabağın yüzlərlə kəndini yerlə-yeksan etmişdilər. Bu dəstələr 1906-cı il iyulun 29-da azərbaycanlıların Karxana kəndinə hücum etdilər. Silahsız kəndlilər ermənilərə müqavimət göstərə bilmədilər. Kəndin bütün kişiləri erməni vandalları tərəfindən öldürüldü. Qaçıb təpəliklər arxasında gizlənmiş 30 qadın və uşağın yerini ermənilər dərhal müəyyən etmişlər. Buna səbəb gənc ana Pakizənin uşağının ağlaması olmuşdur. Hətta tarix bu körpə qızın adını da saxlamışdır - Firuzə. Qadınlar və uşaqlara da aman verməyərək onları qəddarcasına qətlə yetirmişlər.

***İ.ƏLİYEV***



# Vətən satqını Əli Kərimli həyasızlığı...

**RƏFİQƏ**

***Yadımdadır, görkəmli alim, böyük yazıçı, pedaqoq və əsl ziyalı Mir Cəlal Paşayevin "Bir gəncin manifesti" əsərini böyük sevgi, məhəbbətlə sevə-sevə oxuyardıq! Ən çox da orada hamının hisslərinə toxunan bir məqam var idi: azərbaycanlı ana daim sevib əzizlədiyi, öz əli ilə toxuduğu xalçanı ehtiyac üzündən bazara çıxararaq satmalı olur. Pullu alıcıya rast gəlir! Amma onun əcnəbi olduğunu biləndə, Azərbaycan xalısının vətəndən kənara aparılacağını hiss edəndə fikrindən daşınır: "İtə ataram, yada satmaram!" - deyir.***

Elə o vaxtdan bu ifadə zərb-məsələ kimi vətənpərvərlik tərbiyəsinin bir elementinə çevrilib. Bu gün Azərbaycan müasir, demokratiya yolu ilə irəliləyən Cənubi Qafqazın lider dövləti, bölgədə söz sahibidir! Ancaq Vətəni satanlar, cinayətkarlar "Vətən mənə nə edib" sualı ilə ökəsinin pis gününə sevinən, uğuruna ürəyi partlayan AXCP sədri Əli Kərimli, hələ də nə yaşına, nə başına hörmət etməyən Cəmil Həsənli, hələ də siyasi mənsubiyyəti bilinməyən Tofiq Yaqublu, ailə münaqişələrin "ulduzu" Fuad Qəhrəmanlı, savadsız Qənimət Zahid, şəbəkə virusların «dəstəkçisi»- Sevinc Osmanqızı, rəzil qadın Gültəkin Hacıbəyli, Vidadi İskəndərli, Arif Məmmədov və bu kimi satqınlar sosial şəbəkələrdə çıxışları ilə riyakarlıqlarını nümayiş etdirirlər. Çünki bu, o radikal müxalifətçilərdir ki, xarici mərkəzlərin "əl müxalifətçiliyi" missiyasını həmişə yerinə yetirib və bu gün də davam etdirir. Bu, o riyakar və satqınlardır ki, sentyabrın 27-də erməni təxribatlarına qarşı əks-hücum əməliyyatları başlanan zaman 50 siyasi partiyanın qəbul etdiyi birgə bəyanatına, daha sonra ölkəmizə qarşı aparılan təcavüzkar siyasətin pislənməsinə yönələn və siyasi birliyimizi özündə ehtiva edən sənədlərə imza atmayaraq Vətən mübaribəsinin bitməsi ilə öz əsl kimliklərini bir daha ortaya qoydular. Belə ki, torpaqlarımızın işğaldan azad edilməsi istiqamətində Vətən müharibəsi getdiyi dövrdə ölkəmizdə fəaliyyət göstərən 50 siyasi partiyanın həmrəylik nümayiş etdirərək Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ətrafında sıx birləşdiyini özündə əks etdirən bəyanatına qoşulmayan radikal müxalifət tarixi qələbəmizdən sonra məsələyə yanaşmasında və ritorikasında açıq şəkildə dəyişikliklər etməyə başladı.

Çünki bunlar satılan-satan erməni çaqqallarından fərqlənməyən dağıdıcı düşərgənin çaqqalları yada düşür. Bunu biz demirik, elə elmdə də belə adlanırlar - satqınlar. Baxın, görün Ömər Xəyyama görə satqınlıq nə deməkdir. Ömər Xəyyama görə, "İnsanın ruhu və əxlaqı nə qədər alçaq olarsa, burnunu bir o qədər dik tutar, bu da həyasızlığın göstəricisidir". Dante "İlahi komediya" əsərində satqınları cəhənnəmin ən sonuncu - 9-cu qatında yerləşdirib. Cəhənnəmin lap mərkəzində duran İuda - onların simvoludur. Xəyanətlərin ən böyüyü - dövlətə xəyanətdir. Və bu «Dəmir yumruq» əməliyyatı ilə 30 il Vətən, torpaq, yurd həsrətilə yaşayan xalqımızın bu niskilinə qələbə sevincini yaşadan Ali Baş Komandan, Prezident İlham Əliyevin diplomatik siyasəti ilə torpağı qanları ilə yoğuraraq Vətən edən Güclü Ordumuzun rəşadətli əsgər və zabitlərimiz haqqımızı, bütövlüyümüzü, Qarabağ Azərbaycanımızı öz sahibinə, özümüzə qaytardığı bu gündə yuxarıda adlarını söylədiklərimiz bu çaqqallar bilməlidirlər ki, cəmiyyət sizlərə aşırı nifrət edir, yaxın zamanlarda əlahəzrət qanun qarşısında cavab verəcəyiniz günü səbirsizliklə gözləyir! Bir də Vətən daşına dönük çıxan bu naqislərdən ancaq bunu gözləmək olar. Bu, aksiomadır. Bir də Vətən bir millətin üzərində yaşadığı, torpağı Vətən edən isə millətin onda yaşadığı, doyduğu, sığındığı və maddi-mənəvi varlığını davam etdirən yerdir. Ancaq bu gün "Milli Şura" nın satqın kadrosu olan AXCP sədri Əli Kərimli üçün satıb satılmaq adi hal alıb. Çünki bu ölü qurum xəyanət kadrolarının cəm olduğu bir üfunət yeridir. Bu yerdə xəyanət kadrosunun ən parlaq "simaları" toplaşıb. Və elə zənn edirlər ki, hay-küy salmaq güclü olmaqdır. Elə bu səbəbdəndir ki, Avropa zibilxanalarını və tualetlərini gəzənlər, ciyərlərini nəcis havası ilə işlədənlər başlayırlar gecələr bayquşlartək facebookda ulayırlar. Çünki istər Vidadisi olsun, istər Orduxanı, Qurban Məmmədovu və ... kimi gədaları zaman gələcək heç qəbir də qəbul etməyəcək. Çünki bu murdar və iyrənc əxlaqsızların üstündə bayquşlar belə ulamayacaq. Bax, budur onların kimliyi, siması. Xalq hər şeyi görür və bilir. Və bu kimi digər erməni iyi verən satqınlar xalqın gənc üzvlərinə 30 il bundan qabaq baş vermiş hadisələrin mahiyyəti ilə bağlı yalanlar söyləməklə onları çaşdırmaq istəyirlər. Nədir dərdiniz? Nə etsəniz də sonda elə yana-yana qalacaqsınız. Çünki Azərbaycan cəmiyyəti AXCP-"Milli Şura"-"beşinci kalon" kimi mayası xəyanətdən yoğrulmuş zərərli tendensiyalara çoxdan yox deyib! Və xalqımız əmin olsun ki, Vətənə və dövlətə qarşı xəyanət yolu tutan bu satqın və naqis xəyanətkarlar gec-tez öz layiqli cəzalarını alacaqlar – özü də Azərbaycan xalqı və qanunları qarşısında!

# Vardanyanın hakimiyyət davası: İRƏVAN ÜÇÜN FACİƏ

***Özünü vətənpərvər göstərən erməni əsilli iblisin iç üzü ortaya çıxıb və elə ən çox da onun məkrli niyyətlərini ermənilər özləri də anlamağa başlayıblar. Ələlxüsus da öz hakimiyyətini göz-bəbəyi kimi qorumağa çalışan və bunun üçün dəridən-qabıqdan çıxan erməni baş nazir Nikol Paşinyan son vaxtlar daha yaxşı başa düşüb həmin o iblisin məkrini.***



Moskva qaçaqmalçısı kimi "ad qazanan", Xankəndinə gəldiyi ilk gündən utanmadan, həyasızcasına yalan danışan, bir vaxtlar Vaqnerə də dəstək vermis Ruben Vardanyan hər hansı siyasi ambisiya güddüyünü utanmadan heç zaman boynuna da almayıb, hər zaman bunu inkar edib.

İblis xislətli yalançı guya "Qarabağ ermənilərinin xilaskarı" statusu ilə bəzi məsələləri, xüsusən də Moskvadan Qarabağa göndərildiyini də hər zaman ört-basdır etməyə çalışıb, amma artıq maskası çırılıb və danışacaq yalanlara erməni cəmiyyəti də məhəl qoymur. Onun gizlədə biləcəyi bir məqam belə yoxdur. Ermənistan Respublikasından belə hakimiyyətə gəlmək üçün platforma kimi istifadə etdiyinə görə artıq qınanılmaqdadır. Onun hakimiyyət niyyətində olduğu indi ümumiyyətlə hamıya bəlli olur, baxmayaraq ki, guya bu niyyətlə qətiyyən çıxış etməyib.

Artıq bəlli olur ki, Ruben Vardanyan sən demə, hansısa qondarma rejim daxilində deyil, birbaşa Ermənistanda hakimiyyəti ələ keçirmək niyyətindədir. Azərbaycanın Qarabağ iqtisadi rayonunda məskunlaşan, yaşayan erməni əsillilər belə onun məhz hakimiyyət naminə ortalığa atıldığını inda daha yaxşı anlamalı olublar. Anlamalı olublar ki, Ruben onlardan alət olaraq, istifadə edib və hələ də onlardan istifadə etməkdədir. Ermənistan Respublikasında hakimiyyəti ələ keçirmək üçün əvvəlcə Xankəndidə məskunlaşan bu hiyləgər orada olmasından, qalmasından platforma kimi istifadə etdiyinə görə qınaq obyetinə çevrilib. Çünki artıq komuflyajı da cırılıb, maskası da, hətta üzü də.

"Mən çalışıram ki, biz erməni dünyasını məhv olmaqdan xilas edək, Ermənistanın və Qarabağın dövlətçiliyini qoruyaq", deyə mızıldanan bu adam vəziyyətdən sui istifadə edir və vətənpərvərlik hissi ilə oynayaraq öz xalqının əslində, hissiyyatını ayaqlar altına atır. Ona lazım olan ermənilərin vəziyyəti deyilş Olsaydı, belə hala çatana qədər hər şeyi məhvə doğru sürükləməzdi.

Qarabağdakı erməni əhali ilə yanaşı, İrəvan sakinləri də, bütövlükdə Ermənistan cəmiyyəti də başa düşür ki, Vardanyanın yalan danışmaq imkanları sərhədsizdir və məsuliyyətdən yayınmağa, həmçinin "erməni dünyasının xilaskarı" kimi özünü göstərmək kimi, olmayan üzü çox bərkdir və ondan utanmaq kimi bir hissi gözləmək də sadəlövhlük olardı.

Rubenin Azərbaycanı tamamilə fərqli, dağıdıcı, işğalçı, əzab verən ölkə kimi təqdim etməsi də onun riyakarlığı, saxtakarlığı kimi dəyərləndirilir. Əvvəla, Bakı İrəvana qarşı hansısa iddia ilə çıxış etməyib və Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayan Ermənistanın dövlətçiliyini məhv etmək kimi bir məqsədi də heç zaman qarşıya qoymayıb. Azərbaycan dinc əhalisi yaşayan şəhər və kəndlərini dağıdan, Azərbaycan torpaqlarını otuz ilə yaxın vəhşicəsinə talan edən Ermənistanın da, orada ara qarışdırmağa, suyu bulandırmağa, bulanıq suda da balıq tutmağa çalışan Ruben Vardanyanın da ölkəmiz barədə sayıqlamaları absurddur. Gəncəyə, Bərdəyə, Mingəçevirə raket və bombalı hücumlar edən də Ermənistan olub. Bu vəhşilik yayan, barbarlıq simvoluna çevrilməkdə olan ölkənin törətdiyi əməllər nəticəsində qocalarımız, qadınlarımız, uşaqlarımız həlak olublar. Amma Azərbaycanın nə İrəvana, nə də digər Ermənistan şəhərlərindən hansısa birinə zərbələr endirməsi barədə bircə dənə də fakt yoxdur və bu hal özü məsələnin nə yerdə olmasını sübut edir. Əgər fakt yoxdursa Ruben deyilən bu iblis hansı arqumentlərlə çıxış edir? Ümumiyyətlə, məkrli planlar quran, Moskvanın aləti olan bu adamın məqsədi nədir?

Ruben özü hamıdan yaxşı bilir ki, Azərbaycan tərəfinin heç bir iddia ilə günahlandırılması mümkün deyil. Buna bel də bağlamır, baxmayaraq ki, buna bənzər müvafiq absurd iddialarla çıxışlar da edir. Vardanyan əslində, tamam başqa taktika ilə ortaya atılıb. O, ermənilər üçün sağalmaz xəstəlik hesab olunan revanşizm və Azərbaycan torpaqlarını ələ keçirmək arzusunda olan erməni hərisliyindən istifadə edir. İndi Vardanyan Paşinyanın devrilməsinə necə nail olmağı planlaşdırır. Əvvəllər o, yalandan bunu inkar etsə də, indi lap açıq şəkildə də etiraf edir.



"Bəli, mən Ermənistanda hakimiyyətin mümkün qədər tez dəyişdirilməsini dəstəkləməyə hazıram", deyə bildirən Ruben Vardanyan etiraf etməkdən başqa çarə görməyib. Yəni çarəsiz qalıb etiraf edib, çünki fakt göz önündədir. Onun Xankəndinə gəlişinin əsas məqsədindən tutmuş bütün bu müddət ərzində orada gördüyü çirkin əməllərə qədər hamısı hakimiyyət hərisliyindən irəli gəlirdi. Xankəndində keçirilən mitinqlər, qondarma "humanitar fəlakət" haqqında nağıl, mif yaratmaq, vəziyyəti gərginləşdirmək üçün Azərbaycanın Qarabağ iqtisadi rayonunda yaşayan ermənilərin guya ərzaq və dərman baxımından sıxıntı keçirdiyi görüntüsü yaratmaq səbəbsiz deyildi. Bunlar hələ Vardanyanın oyunlar qurmaq istiqamətində səylərinin bir hissəsidir və məqsədi də Ermənistan Respublikasında hakimiyyəti qamarlamaqdır.

Bakı ilə Qarabağ erməniləri arasında dialoqa hər cür maneələrin yaradılması, azərbaycanlı mülki əhalinin qatilləri Robert Köçəryanın və Serj Sarkisyanın hakimiyyəti



ələ keçirmək kimi variantlarından istifadə yalnız hakimiyyət niyyəti iləddir. Vardanyan Paşinyanı devirmək və Ermənistanın yeni rəhbəri olmaq arzusundadır. Bu yolda da hər şeyə hazırdır. Heç şübhəsiz ki, Nikol Paşinyan da baş nazir kürsüsünü ona asan bağışlamaq niyyətində deyil. Belə çıxır ki, Ermənistanda hələ daha dəhşətli qarışıqlıq gözlənilir və bu heç də erməni xalqına və rəsmi İrəvana sərf edən deyil. Daha dəqiq desək bu böyük faciə deməkdir. Çünki artıq müəyyən qrup insanların, daha doğrusu, erməni əsilli əhalinin müəyyən bir qrupunun fikrini çaşdıra, onları aldada bilən Ruben hamısını Ermənistanın mövcud hakimiyyətinə qarşı yönəltmək niyyətinə düşərsə bu, Paşinyan üçün hakimiyyət itgisi görünə bilər və belə olan halda, onun tərəfdarlarını qarşıdurmaya cəlb etməsi gözləniləndir. Bu isə o deməkdir ki, hər an vətəndaş müharibəsi baş qaldıra bilər. Vətəndaş müharibəsi də öz növbəsində ölkənin fəlakəti, faciəsi deməkdir. Hər bir halda Ruben Vardanyan kimi bir fırıldaqçı üçün, vicdanını çoxdan itirmiş biri üçün ölkəsində nə kimi hadisələrin baş verəcəyi, eləcə də vətəndaş müharibəsi hesaba belə alınmır. Çünki Qarabağdan hansısa sülhməramlı maşınında gizlənərək qaçıb Rusiyaya bir dəfə getdiyi kimi, yenə də Ermənistanda çaxnaşma görəndə yoxa çıxması heç də çətinlik törətməz. Ermənistanı qan gölünə çevirsə belə, Ruben helikopterlə oranı tərk edib aradan çıxacağına əmindir. Ona görə də vətəndaş müharibəsi, fəlakət, faciə deyə bir şeyləri düşünmədən, vecinə belə almadan ağlına gələni etməkdən çəkinmir. Elə Ruben Vardanyanın hakimiyyət davası da məhz bu səbəbdən İrəvan üçün faciə vəd edir.

***İnam Hacıyev***

## Uşaqlar arasında narkomaniyanın qarşısı necə alınmalıdır?

"Şübhəsiz ki, bütün dünyanı öz ağuşu altına alan narkomaniya bəlası gün keçdikcə artır və daha çox yeniyetmə və gəncləri hədəf götürüb. Dövlət siyasətimizin başlıca vəzifəsi sağlam gələcəyin formalaşması istiqamətində zərərli vərdişlər və narkomaniya ilə mübarizədir. Bu istiqamətdə proqramlar, komissiya fəaliyyət göstərir. Həmçinin vətəndaş cəmiyyəti institutları da mütəmadi olaraq maarifləndirmə işlərini davam etdirir".



Bu sözləri SİA-ya açıqlamasında "Gənclərin Töhfəsi" İctimai Birliyinin sədri Asim Vəliyev deyib.

Onun sözlərinə görə, təbii ki, narkomaniya ilə mübarizə uzunmüddətli, çoxşaxəli bir prosesdir: "Problemin əsas təhlükəsi ondan ibarətdir ki, əksər cinayətin yaranma səbəbləri arasında birinci yerdə narkomanlığa aludəçilik durur. Narkomaniyanın qarşısını almaq və ortadan qaldırmaq üçün bu günün gənclərinin ruh halı, meyilləri və həyata dair qayğıları kompleks şəkildə ələ alınmalıdır. Bu olmadığı təqdirdə mübarizə də tam olaraq öz nəticəsini vermir, inzibati tədbirlər, şəxsin psixologiyası və xarakteri üzərində müzakirələr aparmaq isə narkotik vasitələrin istifadəsinin artımını azalda bilər, ancaq problemin özünü ortadan qaldıra bilməz. Əgər bu gün ölkəmizdə işsizlik mövcuddursa, xürafatlar artırsa, maddi bir varlıq olaraq gənc gələcəyi ilə bağlı narahatlıq duyursa, gələcək həyatı ilə bağlı suallar cavabsız qalırsa, "xilas yolu" olaraq seçimi narkotik vasitədə görür".

A.Vəliyev sözlərinə davam edərək bildirib ki, bu baladan çıxış yolu olaraq gənclərimizin social fəaliyyətlərinin artırılması, məşğulluğunun təmin olunması, asudə vaxtlarının səmərəl təşkili və fiziki aktivliyə cəlb olunması yönündə təşəbbüsləri artıra bilərik: "Eyni zamanda narkomaniya ilə mübarizəyə və zərərləri barədə sosial çarxların çəkilib şəhər mərkəzlərində, ictimai yerlərdə reklam ekranlarından da yayımlanması da qismən də olsa problemin həllinə öz töhfəsini verə bilər".

***Ləman Sərraf***

# Siqnal mədəniyyət göstəricisidir: “Adə, Ələsgər!”

*Hər səhər işə başlamazdan əvvəl redaksiyakı iş otağımızı havalandırmaq, axşamdan bağlı qalan otağın havasını təmiz hava ilə dəyişmək istəyirik. Pəncərəni açmağımıza peşman oluruq, maşın siqnalları insanı kar edə biləcək dərəcədə çox olur. Kor-peşman pəncərəni bağlayıb kondisioneri qoşuruq. Məsələn, elə bu yazını yazarkən də pəncərəmiz bağlı, kondisionerimiz işlək vəziyyətdədir, hava kifayət qədər sərin olmasına baxmayaraq, biz bayırdan təmiz hava qəbul etmək yerinə kondisioner havası qəbul edirik. Redaksiyamızın yerləşdiyi küçədən keçən maşınlar sözləşmiş kimi hamısı eyni vaxtda siqnal basırlar. Əslində, bu tək bizim yox, bütün iş yerlərinin, evlərin – bütün insanların problemidir. Küçədə siqnalı dayanmadan basıb evə gələndə səs-küydən balkona çıxa bilmədiyindən şikayətlənən vətəndaş, elə sənin də problemindir.*



Maraqlıdır, avtomobili olanlar, avtomobil idarə edənlərin hamısı siqnal vermək məcburiyyəti və qadağası olan vəziyyətləri bilirmi? Maşının siqnalını basmaq üçün saysız-hesabsız bəhanələr tapanlar bunu etməmələri lazım olduğunu bilmirlər? Onlar ətrafdakıları nə qədər narahat etdiyini dərk etmirmi? Yaratdıqları səs-küyün, narahatlığın insan sağlamlığına mənfi təsir edəcəyini düşünmürmü?

### Həm səbirsizdir, həm də mədəniyyətsiz...

Problem həm də ikibaşlıdır. Yəni, həm siqnal mədəniyyətsizliyi var, həm də qanunsuzluq. 1-cisi odur ki, avtomobildə quraşdırılmış siqnaldan qadağan olan ərazilərdə lazım olmadığı hallarda basan çox sayda sürücü var. 2-ci hal isə odur ki, həm lazım olmadığı halda siqnal basan, həm də qanunla qadağan edilmiş standartdan kənar siqnal quraşdırıb basan var. Problemin hər ikisi narahatlıq yaradır.

Həm yollarda, həm də yaşayış məntəqələrində gərginliyə səbəb olan siqnal mədəniyyətsizliyi qanunla hər hansı bir formada cəzalandırılırmı? Azərbaycanda yol hərəkəti haqqında qəbul edilmiş qaydalara görə yaşayış məntəqələrində sürücülər siqnaldan yalnız yol-nəqliyyat hadisəsinin qarşısını almaq üçün istifadə edə bilər. Bu halda səs siqnalı başqa hərəkət iştirakçılarının diqqətini cəlb etmək, onları daha diqqətli olmağa səsləmək funksiyasını oynayır. Yaşayış məntəqəsindən kənarda səs siqnalı əlavə olaraq ötmə niyyəti haqqında başqa sürücüləri xəbərdar etmək üçün zəruri olan hallarda verilə bilər. Deməli, sürücü, yaşayış məntəqəsində yalnız qəza halının qarşısını almaq üçün, yaşayış məntəqəsindən kənarda həm qəza halının qarşısını almaq üçün, həm də ötmə barədə başqa sürücülərə məlumat vermək üçün siqnala basa bilər.





Maraqlıdır, bunu ölkəmizdə sürücülük vəsiqəsi olan nə qədər adam bilir? Yaxud, 3.26 nömrəli nişanı nə qədər sürücü tanıyır? Bu nişanın mənasının “səs siqnalı vermək qadağandır” olduğunu bilən neçə sürücü var?

### Yəqin maraqlıdır, sürücülər siqnaldan niyə bu qədər istifadə edir?

Birincisi, bu, bir növ salamlaşma üsuludur. Yolda, küçədə, hansısa evin qarşısından keçəndə, hansısa obyektin, iş yerinin qabağında dostunu-tanışını görəndə siqnalın üstünə çıxan sürücülər bununla tanışına salam vermiş olur.

İkincisi, işıqforda dayanan qabaqdakı sürücünü tələsdirmək məqsədi ilə verilir. İşıqfor qabaqdadır, sağdadır, hamının görüdüyü hündürlükdə və böyüklükdədir. Əgər arxadakı sürücü onun hələ də qırmızı olduğunu görürsə, israrla yenə siqnal verirsə və bu cür insanlar paytaxtımızda minlərlədir, o zaman o, üzr istəyirəm, mədəniyyətsizin lap böyüyüdür.

Üçüncüsü, yol istəmək məqsədi ilə dayanmadan siqnal verənlər də var. Yol, məhdudiyyətli görmə zonasıdır, qarşında 50 metr məsafəni görürsən və qaydalara görə belə olan halda ötmə əməliyyatı icra etmək olmaz. Arxadakı avtomobilin sürücüsü bu yol şəraitini gördüyü halda israrla sizdən yol istəyir. Bu israrının səbəbi də mənzil başına 2 dəqiqə daha tez çatmaqdır. Mənzilə çatmaq yerinə qəzaya düşənlərin sayı qəza statistikasında özünü göstərir.

Dördüncüsü, çoxmərtəbəli binanın həyətində avtomobildə gözləyib yuxarı mərtəbədəki yaxınını, ailə üzvünü tələsdirmək məqsədi ilə siqnal verənlər də var. Belə hallarda telefon zəngi, mesaj kimi ünsiyyət yolları yerinə başqalarının rahatlığını pozaraq siqnal vermək necə, mədəniyyətli adam işidir?

### İt, pişik, uzunqulaq səsi çıxaran siqnallar



Avtomobil siqnalları ilə bağlı başqa bir böyük problem də bəzi şəxslərin öz avtomobillərinə standartlardan kənar siqnallar quraşdırması və ondan istifadəsi ilə bağlıdır. Belə ki, avtomobilinə ip-pişik səsi, filmlərdən frazalar, fərqli səslər quraşdırıb siqnal kimi istifadə edənlər də çoxdur. Bu da başqalarının rahatlığını pozmaqla yanaşı, olduqca qeyri-mədəni davranışdır və kobud qayda pozuntusudur.



Qeyd edək ki, nəqliyyat vasitələrinin hər biri üçün xüsusi səs standartı var. Bu standartlar qanunla tənzimlənir, siqnalın səsi və gücü müəyyənləşdirilir. Siqnal bir tipli olmalı, avazı dəyişməməlidir. Buna monofonik səs sistemi deyilir. Qanunlarımız polifonik, yəni birdən çox avazdan, səsdən istifadə edilən siqnalların quraşdırılmasını qadağan edir. Polifonik səs siqanlı yalnız operativ nəqliyyat vasitələrində quraşdırılır.

Operativ nəqliyyat vasitələri - yanğından mühafizə, polis, təcili tibbi yardım, qəzaxilasetmə bölmələrinin, hərbi avtomobil müfəttişliyinin funksional tapşırıqlarının yerinə yetirilməsi, pul mədaxilinin inkassasiyası və qiymətli yüklərin daşınması, Azərbaycan Respublikasının ali vəzifəli şəxslərinin mühafizəsi vəzifələrinin icrası üçün nəzərdə tutulan, Milli operatora məxsus olan və poçtun daşınmasında istifadə edilən, üstündə xüsusi qrafikalı rəngli sxemlər, yazılar və tanınma nişanları olan, xüsusi işıq və səs siqnalları ilə təchiz edilmiş avtomobillərdir.

Qeyd edək ki, hətta operativ nəqliyyat vasitələrinə qoyulan xüsusi çoxavazlı səs siqnallarının da konkret standartı olur. Bu standartlarda həm səsinin icazə verilən maksimum gücü təyin edilir, həm də sirenanın tipi nəzərdə tutulur.

Qanunlar səs siqnalı vermə qaydalarını pozmaya görə cərimə tətbiq edir. İnzibati Xətalar Məcəlləsinin 151-2.2-ci maddəsi nəqliyyat vasitəsində mövcud olan standarta uyğun səs siqnalından qaydaları pozmaqla istifadəyə görə, yəni yaşayış məntəqəsində qəza halından başqa siqnal verərsə, yaşayış məntəqəsindən kənarda isə həm bu hala, həm də zəruriliyi məcbur olduqda ötmə halından başqa digər hallarda siqnal verərsə sürücü 30 manat cərimə edilir.

Əgər digər formada qanun pozularsa, yəni avtomobilə standartdan kənar siqnal quraşdırılarsa o zaman sürücünü İXM-in 155.7-ci maddəsinə əsasən, 500 manatdan 800 manatadək cərimə gözləyir. Cərimənin tətbiqindən sonra siqnal sökülərək müsadirə edilməlidir. Əgər yerində sökmək mümkün deyilsə, o zaman avtomobil cərimə meydançasına göndərilir. Orada siqnal söküldükdən sonra avtomobil sahibinə geri qaytarılır.

Siqnal mədəniyyətdir, sürücünün ən əvvəl özünə, sonra yaxınlarına, daha sonra da çevrəyə, mühitə, insanlara göstərdiyi mədəniyyət. Hər birimiz yaxşı bilirik yollarda lazımsız siqnal basanlara qarşı münasibəti, edilən həqarətləri, söyülən söyüşləri. Dəyərmi?

**Lalə Mehralı**





# Qərbi Azərbaycana ermənilərin köçürülməsi: tarixi torpaqlarımızda erməni dövlətinin yaradılması

***Azərbaycanlılar indiki Ermənistan ərazisində e.ə. II yüzillikdən yaşamağa başlayıblar. Kimmer, sak, quqar, şirak, qarqar, şadılı, kəngərli, cinli, oğuz, sabunçu, baharlı, bayandur, əfqan, qacar, qazax, əfşar, xalac, şamlı, ustaclı, türkmən, ayrım, qarapapaq, zəngi, muğanlı, bayat, ilxıçı, kolanı, kürəkənli (körakanlı) və başqa türk qövmləri bölgədə yaşayan köklü tayfalar olublar. Qərbi Azərbaycan ərazisində, həmçinin Azərbaycan türklərinin soykökündə iştirak etmiş varsaq, barsil, şiraq (siraq), qaşqay, saq, arsaq, bulqar kimi türk tayfaları da çox qədim zamanlardan bu ərazilərdə yaşayıblar.***

Qərbi Azərbaycan ərazisi e.ə. IV yüzillikdən – eramızın 705-ci ilinə qədər qədim Azərbaycan dövləti Albaniyanın, VIII–IX yüzilliklərdə Ərəb xilafətinin, XI–XIII yüzilliklərdə Səlcuqlu dövlətinin, XIII–XIV əsrlərdə Böyük Monqol imperiyasının, 1410–1468-ci illərdə Qaraqoyunlu, 1468–1501-ci illərdə Ağqoyunlu, 1501–1736-cı illərdə Səfəvilər, 1736–1747-ci illərdə isə Əfşarlar dövlətinin tərkib hissəsi olub. XVI yüzilliyin sonları və XVIII yüzilliyin 20-ci illərində Osmanlı–Səfəvi müharibələri zamanı iki dəfə Osmanlı imperiyasının tərkibinə qatılan İrəvan xanlığı 15 mahala bölünmüşdü: Qırxbulaq, Zəngibasar, Gəmibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd–Parçeniş, Saatlı, Talın, Seyidli–Axsaxlı, Sərdarabad, Karpibasar, Abaran, Dərəçiçək və Göyçə. Bütün bunlar Qərbi Azərbaycanın əsrlər boyu azərbaycanlıların yaşadığı qədim yurd olmasını təsdiq edir.

Bu sözlər Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri, Qərbi Azərbaycan Ziyalılar Şurasının üzvü Əfqan Vəliyevin "Qərbi Azərbaycana ermənilərin köçürülməsi və tarixi torpaqlarımızda erməni dövlətinin yaradılması" sərlövhəli məqaləsində yer alıb. "İki sahil" AZƏRTAC-a istinadən məqaləni təqdim edir.

XIX əsrin əvvəllərində Qarabağ xanlığı ilə Rusiya arasında imzalanan Kürəkçay müqaviləsi, Rusiya və İran dövlətləri arasında bağlanan Gülüstan, Türkmənçay və Ədirnə müqavilələrindən sonra böyük dövlətlərin dəstəyi və himayəsi nəticəsində İran və Türkiyə ərazisindən ermənilərin Azərbaycan torpaqlarına kütləvi şəkildə köçürülməsi siyasəti həyata keçirilib.

İrandan ermənilərin Qərbi Azərbaycana köçürülməsi: 1828-ci il fevralın 10-da bağlanan Türkmənçay müqaviləsinin 15-ci maddəsinə əsasən İranda yaşayan ermənilərə sərbəst surətdə Rusiyanın himayəsinə keçmək hüququ verilirdi. Hökumət və yerli rəisliyin heç bir maneçiliyi olmadan onların satlıq malına və ya əmlakına, əşyalarına hər hansı gömrük və vergi qoyulmadan daşınan mülkünü aparmaq və satmaq üçün bir il, daşınmaz mülkə gəldikdə isə onun satılması və ya onun haqqında öz xoşuna sərəncam/vəkalət üçün 5 illik müddət müəyyən edilmişdi. Polkovnik Lazarev xristianların Rusiya ərazisinə köçürülməsinin nəticələri haqqında qraf Paskeviç - Erivanskiyə 1829-cu il dekabrın 24-də yazdığı yekun hesabatlarda göstərir ki, köçürmə işlərinə 1828-ci il fevralın 26-da başlayıb və iyunun 11-də başa çatıb. Bu müddət ərzində 8249 xristian ailəsi (onlardan cəmisi 100-ə qədəri aysor ailəsi, qalanları ermənilər olmuşdur) İrəvan, Naxçıvan və Qarabağ əyalətinə köçürülmüşdü. 1829-1832-ci illərdə erməni vilayətində kameral siyahıyaalma keçirmişdi. Statistik məlumatlara görə, İrandan köçürülən



ermənilər 366 ailə tərkibində 1715 nəfər İrəvan, 265 ailə tərkibində 1110 nəfər Naxçıvan və 36 ailə tərkibində 182 nəfər Ordubad şəhərlərində yerləşdirilmişdi. Köçürülən ermənilər İrəvan əyalətinin 119 kəndində, Naxçıvan əyalətinin 61 kəndində, Ordubad dairəsinin 11 kəndində yerləşdirilmişdi. Ümumiyyətlə, İrəvan əyalətində 4599 ailə tərkibində 23 min 568 nəfər, Naxçıvan əyalətində 2137 ailə tərkibində 10 min 652 nəfər, Ordubad dairəsində 250 ailə tərkibində 1340 nəfər erməni yerləşdirilmişdi. Nəticədə "erməni vilayətinə" 6949 ailə, tərkibində 35 min 560 nəfər köçürülmüşdü. Əgər yeni təşkil edilmiş erməni vilayətində müsəlmanların sayı 81 min 749 nəfər (16 min 78 ailə) və ermənilərin sayı 25 min 131 nəfər (4428 ailə) olmuşdusa, İrandan erməniləri köçürdükdən sonra onların sayı 60 min 691 nəfərə (11 min 377 ailə) çatmışdı. Bununla da ermənilərin sayı 24 faizdən 43 faizə qalxmışdı. Əgər nəzərə alsaq ki, ümumiyyətlə, İrandan köçürülən 8249 ailədən 6949-u erməni vilayətində yerləşdirilib, onda belə qənaətə gəlmək olar ki, yerdə qalan 1300 ailə Qarabağa və Zəngəzura köçürülüb.

Türkiyədən ermənilərin Qərbi Azərbaycana köçürülməsi: 1828-1829-cu illər Rusiya-Türkiyə müharibəsindən sonra erməni vilayətində (keçmiş İrəvan və Naxçıvan xanlıqlarının ərazisində) aparılan siyahıyaalmanın nəticələrinə görə, vilayətin ərazisinə 21 min 666 nəfər (3682 ailə) erməni, 324 nəfər (67 ailə) yezidi kürdlərinin köçürüldüyü göstərilir. Köçürülən ermənilər Qırxbulaq, Sürməli, Talın, Körpübasar, Abaran, Dərəçiçək və Göycə mahallarının 129 kəndində yerləşdiriliblər. 1832-ci ilin sonu, 1833-cü ilin əvvəlində Türkiyədən Zalqaya köçürülən ermənilərdən 182 ailə (674 nəfər kişi cinsi) yenidən Şörəyel-Pəmbək distansiyasına köçürülüblər. Köçürülənlərin arasında 169 yunan və 963 nəfər erməni katolikləri (frankları) var idi.

Tarixi sənədlər göstərir ki, bu, düşünülmüş, ardıcıl, məqsədyönlü bir proses olub. Rus tarixçisi İvan Şopenin kitabındakı faktlar da bunu təsdiqləyir. Müəllifə görə, 1828-1832-ci illərdə erməni vilayətində 1111 yaşayış məskəni olub ki, bunlardan da cəmi 62 kənddə yerli ermənilər məskunlaşıb. 1069 kənddə isə Azərbaycan türkləri yaşayırdı.

Şörəyel-Pəmbək bölgəsində 100-ə yaxın kənddə Türkiyədən köçürülən ermənilər yerləşdirilmişdi. Şörəyel bölgəsinin (Gümrü ətrafı - indiki Axuryan rayonu) əhalisinin vaxtilə Türkiyədən köçürülən ermənilərdən ibarət olması haqqında Zori Balayan "Ocaq" kitabında yazır: "Demək olar ki, bu bölgənin bütün əhalisi Qars, Van, Muş və Bitlisdən, Qərbi Ermənistanın bir çox əyalətlərindən olan bədbəxt qaçqınlardan ibarətdir. Hesablanmışdır ki, vaxtilə Axuryan rayonunda (keçmiş Düzkənd rayonu) Qərbi Ermənistanın 80-dən artıq yaşayış məskənindən, türk yatağanından (əyri qılıncından) xilas olan ermənilər gəlib məskunlaşmışlar". Z.Balayan bu bölgənin əhalisinin bütünlüklə Türkiyədən gələn ermənilərdən ibarət olmasını qeyd etməklə, həmin ərazidə vaxtilə türklərin məskunlaşmış olduğunu bilavasitə təsdiq etmiş olur.

İndiki Ermənistan ərazisinə ermənilərin kütləvi axını XIX əsrin əvvəllərində baş verən Rusiya-İran, Rusiya-Türkiyə müharibələrindən sonra da davam edib. Həmin dövrdə ermənilərlə yanaşı, yezidi kürdlər də gəlib indiki Ermənistan ərazilərində yerləşmişdilər. 1834-cü ilin məlumatına görə İrəvan əyalətində Bayaziddən gəlmiş 1000 nəfər (təqribən 300 ailə) yezidi kürdləri məskunlaşmışdılar. Ələyəz dağının ətəyində bir sıra boşalmış türk kəndlərində də Türkiyədən gələn yezidi kürdləri məskunlaşmışdı. Yezidi kürdləri 1839-cu ildə Mirək, Quruboğaz, Carcarçı, Çobangərəkməz kəndlərində, sonralar isə Pəmbək, Qundaxsaz, Böyük Camışlı, Kiçik Camışlı və Korbulaq kəndlərində məskunlaşmışdılar. Nəhayət, yezidi kürdləri 1877-ci ildə Bağdad, Dolu-Taxt və Kiçik Cəngi kəndlərində gəlib yerləşmişdilər. Sonralar Ermənistanın rəsmi dairələri tərəfindən adları dəyişdirilən, lakin əsasən bu kəndləri əhatə edən Arağats rayonu təşkil edilmişdi. Türkiyədən köçürülən yunanlar isə əsasən Şörəyel-Pəmbək distansiyasının Alakilsə, Bayandur, Sisimədən kəndlərində və Gümrüdə yerləşdirilmişdilər. Sonralar yunanlar Ermənistanda tamamilə assimilyasiyaya uğrayaraq tədricən erməniləşdilər.

Ümumiyyətlə, 1826-1828-ci illər Rusiya-İran və 1828-1829-cu illər Rusiya-Türkiyə müharibələrindən sonra erməni vilayətinə (İrəvan və Naxçıvan xanlıqlarının ərazisinə) İran və Türkiyədən 57266 nəfər erməni (10631 ailə) köçürülmüşdü. Köçürülmələrdən əvvəl həmin ərazidə cəmisi 25131 nəfər (4428 ailə) erməni yaşayıb. Müharibələrin nəticəsində İrəvan və Naxçıvan xanlıqlarının ərazisindən türklərin xeyli hissəsi qaçqın düşüb, orada yalnız 81749 nəfər (17078 ailə) müsəlman qalmışdı. Köçürmələrdən sonra isə ermənilər 82397 nəfər (15059 ailə) təşkil edib, nəticədə müsəlmanları sayca üstələmişdir.

Ermənilərin tarixi Azərbaycan torpaqlarına köçürülməsi nəticəsində bölgədə əhalinin etnik tərkibi dəyişib. Belə ki, tarixi torpaqlarımız iğtişaş və münaqişə mənbəyinə çevrilib. Soyqırımılar və azərbaycanlılara məxsus yaşayış yerlərinin yandırılması, deportasiya, tarix və mədəniyyət abidələrinin dağıdılması, tarixi-maddi nümunələrinin adlarını dəyişdirərək erməniləşdirib bölgədəki azərbaycanlı izlərini silməyə çalışmaq, bu mümkün olmadıqda isə həmin maddi-mədəniyyət abidələrini ya məhv etmək, ya da "qədim ermənilərə" aid olmaları barədə saxta tarixi sənədlər hazırlamaq, abidənin mənsubiyyətini dəyişdirməklə öz adlarına çıxmaq kimi hallar bu siyasətin tərkib hissəsi idi.

Qərbi Azərbaycanın erməniləşdirilməsi məqsədilə İrəvan, Göyçə, Zəngəzur və digər bölgələrdə yaşayan azərbaycanlıların öz tarixi yurdlarından deportasiyasına və soyqırımına start verilib. Erməni köçkünlərin sayının mexaniki şəkildə artırılması nəticəsində regionda marağı olan böyük dövlətlərin dəstəyi ilə 1918-ci il mayın 28-də daşnaklar tərəfindən qədim Azərbaycan torpaqları olan keçmiş İrəvan xanlığı ərazisində tarixdə ilk dəfə olaraq erməni dövləti yaradılaraq Azərbaycan torpaqları hesabına tədricən onun ərazisini böyüdüblər. Bolşeviklərin xidməti sayəsində Zəngəzur qəzasının bir hissəsi Ermənistana verilməklə Naxçıvan Azərbaycandan ayrı salınıb.

Bütün bunlarla yanaşı, 1905–1907, 1918–1920, 1948–1953, 1959–1979 və 1987–1991-ci illərdə "monoetnik Ermənistan" dövləti yaratmaq məqsədilə həmin ərazilərdən azərbaycanlıların etnik təmizlənməsi aparılıb. 1987–1991-ci illərdə baş verən son deportasiya zamanı 22 rayondan (172 sırf azərbaycanlı, 89 ermənilərlə qarışıq yaşayış məntəqələrindən 40 min 928 ailə) 300 mindən çox azərbaycanlı ata-baba yurdlarından zorla çıxarılıb, bir hissəsi qətlə yetirilib, yaralanıb və yollarda qar çovğununa düşərək həlak olublar.

*Ermənistanın Rusiya ilə münasibətlərinin son dərəcə korlanması və Azərbaycanın öz suveren hüquqlarını qoruması ilə bağlı atdığı son qətiyyətli addımları erməniləri ciddi şəkildə təlaşlandırmağa başlayıb. Ümumiyyətlə, Paşinyanın son bir neçə ayda yenidən 2020-ci ildəki sərsəmləmələri, Qərbdən aldığı tapşırıqları icra etməsi regionda yeni gərginliklərə səbəb olmaqdadır. Qarabağdakı qondarma və quldur rejimin isə "prezident seçkiləri" keçirməsi bütün səbrləri daşırmağa başlayıb. Hətta erməni siyasi şərhçiləri də etiraf edirlər ki, bütün bu kimi olaylar Ermənistanın varlığına son qoya bilər.*



# Ermənistanın “kitabı” bağlandı



## Vahe Ovannisyan: "Nikol Paşinyan Ermənistanı eksperimental heyvana çevirib"

### Erməni siyasi eksperti: ”Bu, bədəli çox ağır olacaq macəradır”

”Nikol Paşinyan Ermənistanı eksperimental heyvana çevirib. Ermənistan rəhbərliyi mümkün müharibə ərəfəsində Rusiya ilə münasibətləri gərginləşdirir”. Bu fikirlərlə erməni siyasi ekspert Vahe Ovannisyan çıxış edib. “Bu, bədəli çox ağır olacaq macəradır. Roma statusunun ratifikasiya üçün parlamentə göndərilməsi, ABŞ ilə hərbi təlimlər... Moskva artıq bunlara sərt reaksiya verib. Bir şəxs eksperimental heyvanın yerinə bütöv bir dövləti qoyub. Biz isə başımızı aşağı salıb taleyimizi gözləyirik”, - erməsi siyasi eksperti bildirib.

O qeyd edib ki, baş nazirin arvadı Anna Akopyanın Ukraynaya səfəri və Roma statusunun təsdiqi fəaliyyəti Rusiyaya birbaşa mesajdır. Ovannisyan Paşinyanın Rusiyanın xoşuna gəlməyən başqa bir addımı atdığını da vurğulub. Bu, Ermənistanın KTMT missiyasından imtina etməsi ilə əlaqəlidir. Erməni politoloqu Azərbaycan və Qarabağ faktorunu da önə sürməklə müharibənin qapı astanasında olduğunu etiraf edib.

### Türk generalı: “Ermənistana gələn ABŞ hərbçiləri geri qayıtmayacaq... Rusiyaya qarşı ikinci cəbhə açılır”

”Cənubi Qafqazda yeni dövr başlayır. Bundan sonra fərqli hadisələr baş verəcək və vəziyyət daha da gərginləşəcək. Əvvəldən də vəziyyətin dəyişəcəyi ilə bağlı siqnallar vardı. Ermənistanın 44 günlük müharibədə məğlubiyyəti ordu, dövlət və xalqı dərin əzilmişlik böhranına sürüklədi. Ona görə də indi Qərbdə özlərinə qəyyum axtarırlar. 11-20 sentyabr tarixlərində ABŞ-la birlikdə keçiriləcək “Qartal tərəfdaşı 2023” təlimi də bunun təzahürləridəndir”. Bu sözləri isə Azərbaycan KİV-lərinə Türkiyənin ölkəmizdəki keçmiş hərbi attaşesi, general Yücel Karauz deyib.



General təlimə gələcək ABŞ hərbçilərinin böyük bir qisminin fərqli adlar altında orada qala biləcəyi ehtimalının yüksək olduğunu vurğulayıb: ”Əlbəttə, sözügedən təlimdə əsas məqsəd Rusiyaya siyasi mesaj verməkdir. Ancaq fikrimcə, ABŞ-ın göndərdiyi 85 hərbçinin böyük bir qisminin təlimdən sonra təlim-tədris, təşkilati işlər, hərbi məsləhətçi, müşavir və s. adlar altında Ermənistanda qalma və fəaliyyət göstərmə ehtimalı çox böyükdür. Bu, vəziyyəti daha qarışıq hala gətirəcək, Rusiyanı hiddətləndirəcək və ölkə daxilində hakimiyyət uğrunda mübarizəni qızışdıracaq. Hətta Ermənistanda qalacaq Amerika hərbçilərinin AB-nin oradakı “mülki missiya”sının pərdə arxasında fərqli vəzifələr yerinə yetirən üzvləri ilə birlikdə fəaliyyət göstərəcəyini də təxmin etmək olar. Bütün baş verən hadisələri böyük çərçivədə və hərtərəfli şəkildə görməli, buna görə hazırlığımızı aparmalıyıq. Paşinyan hökumətinin AB missiyasını ölkəyə dəvət etməsini, NATO-nun Avropa İnkişaf Komitəsinin sədri Günter Fehlingerin İrəvanın təşkilata üzvlük təklifini, ABŞ-la birgə keçiriləcək təlimi və digər məsələləri göz önünə aldığımız zaman artıq Qərbin Cənubi Qafqazda Ermənistan üzərindən Rusiyaya qarşı ikinci cəbhə açdığını deyə bilərik”.

### Rusiya XİN Ermənistana Ukraynanı xatırladıb

Türkiyə generalının bu fikirləri Rusiya rəsmilərinin bəyanatları ilə üst-üstə düşür. Artıq Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova Ermənistanda Qərbyönümlü media resurslarının sayının artması ilə bağlı sərt fikirlərini ifadə edib və Ermənistana hədə mesajı yollayıb.

Onun sözlərinə görə, anti-Rusiya kampaniyası xaricdən maliyyələşir və Ermənistanda ictimai əhvali-ruhiyyəni dəyişməyə yönəlib. ”Təəssüf ki, Ermənistanda açıq informasiya resursları var ki, bizim ümumi dövlətlərarası qarşılıqlı fəaliyyət mexanizmlərimizə, o cümlədən KTMT və Aİİ-ni tənqid etmir, palçıq atır. Vurğulamaq istərdim ki, bu, “kollektiv Qərb” tərəfindən səxavətlə maliyyələşdirilən çoxsaylı qondarma vasitələrlə təbliğ olunur: QHT-lər, “ekspertlər” və “qrantlar”, - Mariya Zaxarova bildirib. O, bu cür hadisələrə misal olaraq Ermənistana Ukraynadakı vəziyyəti xatırladıb.

### Bütün bunlara son qoyulmalıdır və qoyulacaq da!

Beləliklə, Ermənistan-Azərbaycan arasında hazırda davam edən gərginliyin davam etməsi fonunda Azərbaycan mütləq Qarabağda antiterror əməliyyatları aparacaq, eyni zamanda, üçtərəfli bəyanatın realizəsi istiqamətində bütün qətiyyətini ortaya qoyacaq. Çünki qarşı tərəf nəinki dialoqa gəlmir və Azərbaycan ərazisində qeyri-qanuni fəaliyyətlərini davam etdirir, həm də regional təhlükəsizlik rolunu oynayır. Məhz bu baxımdan bütün bunlara son qoyulmalıdır və qoyulacaq da!

***Afət Tahirqızı***

ŞƏRH+AKTUAL



# 5.80 x 7= 40.60

**Ay qardaş, vallah, lazım deyil, nə lazım axı bu qədər xərc?.. Başa düşürük, imkanınız bir o qədər də yaxşı deyil. Qazandığınız heç özünüzü idarə etmir. Hələ bir durub kiməsə hədiyyə almaq nə üçündür axı? Vallah, sizi buna təhrik edən də yoxdur. Sizdən bunu istəyən də yoxdur. Uman da yoxdur. Siz Allah, nahaq əziyyət çəkirsiniz, vallah ehtiyac yoxdur...**

Uşaqdılar da, borcları yaxşı oxuyub universitetə girməkdir. Bunu son vaxtlar elə böyük bir məsələyə çevirirlər ki... Uşaq ki, universitetə qəbul olundu, qohum-əqrəba başlayır hədiyyə almağa. Valideynlər də başlayır qonaqlıq verməyə. Deyirsən, axı bunlar niyə belə edirlər, nə olub ki?.. Məşədi İbad deməli, heç hənanın yeridir. Nədi-nədi ki, uşaq məktəbə girib. Ay qardaş, ay bacı, uşağın məktəbə girməsi onun ən birinci vəzifələrindəndir də. Özünüzə bu qədər xərci nə üçün vurursunuz?..

Yaxşı, deyirsiniz ki, nə olar ki, hədiyyə alanda. Doğrudan ey, nə olar ki?.. Bir kiçik, yaddaqalan hədiyyə ilə nə olacaq ki, yəni. Amma özünü xərcə salan kişilər də olur. Adam belə hadisələrlə qarşılaşanda deyir, nə lazım ki, bu qədər xərc. Budur ey, icra başçılarından biri rayon üzrə 600-700 bal toplayan 7 tələbəyə 7 saat alıb. Bu tələbələr 15 sentyabrı iplə çəkirlər ki, həmin saatları qollarına taxıb universitetə getsinlər. Çox gözəl, bu, elə bir xatirədir ki, həyat boyu unudulmayacaq. Uşaqlar hər o saata baxanda onlara göstərilən hörmət və ehtiramın dəyərini anacaqlar.

Heç saatların qiymətinin dəyəri də pis deyil. Hər biri 5.80 qəpik olan bu saatları 7-yə vuranda, gör nə qədər edir? 5.80x7= 40.60 qəpik. Görün, nə böyük ürək sahibləri var. İndiki dövrdə 40.60 qəpyindən keçən hələm-hələm adam tapılmaz. O da ola elin uşağına. Vallah vəzifədə işləyən dayılar, əmilər, atalar var ki, heç doğma balasına, qohumuna bu qədər xərc çəkib hədiyyə almaz. Lakin icra başçılarından bunu edənlər var. Həm vaxtını ayırıb tələbələrlə görüşən, həm də onlara ümumilikdə 40.60 qəpik xərc çəkən rayon rəhbərinə, halal olsun.

Vallah, hədiyyənin böyüyü.-kiçiyi olmaz, deyərlər. Ötən illərdə də başqa bir rayonun icra başçısı voleybol üzrə birinci yerə çıxan idmançıların hərəsinə bir elektrik çaydanı hədiyyə etmişdi. Ondan qabaqkı il icra başçılarından biri rayon üzrə olimpiada qaliblərinin hərəsinə bir şüşə qənddan hədiyyə etmişdi. Vallah, bunları qiymətləndirmək lazımdır. Yaxşı, qoy o biri rayonların icra başçıları da bu addımları atsın da. Görürsünüz, bu addımı hələm-hələm adam da atmır. Buna birinci böyük ürək lazımdır, ikinci vaxt, üçüncü də dəyər. Çox təəssüf ki, hər kəsdə böyük ürək də, vaxt da olmur, dəyər də verməyi bacarmır.

Odur ki, 600-dən yuxarı bal toplayan 7 tələbənin saat kimi hədiyyə ilə dəyərləndirilməsini, vallah, mən öz adıma böyük hadisə hesab edirəm. Deyənlər var ki, əşi, bunların hərəsinə 100 manat verərdin, gedib özlərinə bir yubkadan, şalvardan, köynəkdən alardılar da. Saatı nə edirdilər axı. Lakin bu cür danışanları mən çox qınayıram. Çünki pal-paltar geyinildikcə cırılıb-dağılan bir şeydir. Lakin saat ömürlük qalandır. Nə üçün insanların əməyini dəyərləndirməyək ki?.. Axı kişilər xərc çəkir... Tələbələrə saat alır ki, metroda başlarını qaldırıb ta saata-filana baxmasınlar, qaçsınlar oxumaq dalınca. İdmançıya elektrik saydanı hədiyyə edirlər ki, səhər-səhər məşqə-filana yubanmasınlar, tezcə çaylarını qaynadıb, içib qaçsınlar. Olimpiada qaliblərinə də şüşə qənddan alırlar ki, evə çatanadək ora-bura çırpıb sındırsınlar, anlasınlar ki, bax, ehtiyatsızlıq edəndə nəyəsə nail ola bilməzsən. Ona görə də ehtiyatsızlıq, məsuliyyətsizlik etmək lazım deyil. Çünki qarşıda hələ olimpiadalar çoxdur...

Bax, bu cür yanaşmanın qarşısında heç kimə yaraşmaz ki, deyə ki, saat yox, pul verərdilər, elektrik çaydanı yox, idman forması, şüşə qənddan deyil, bir qələm və ya kitab verərdilər.. Bəli, haqqımız yoxdur. Çünki bizim dəyərli atalarımız deyiblər ki, bir hədiyyə alanda, ya öz adına, ya da verdiyin adamın adına layiq al. Bu kişilər də işlərini bilirlər, vəssalam. Adları-sanları var axı...

***Mətanət Məmmədova***

**FELYETON**

# Sevinc Osmanqızı Ermənistanın təbliğatçısı rolunu davam etdirir

*Azərbaycanın ermənilərə barmaq silkələməsi və hər an "Dəmir yumruğ"un işə düşə biləcəyini bəyan etməsi erməniləri və xarici qüvvələri ciddi narahat edib. Ermənistan hakimiyyəti və xaricdəki erməni lobbisi qorxu və vahimə içində nəzərlərini hərbi, siyasi dəstək aldıqları böyük güclərə dikiblər. Böyük güclər isə ermənilərə kömək etməkdə acizdirlər. Çünki beynəlxalq hüquq və ədalət Azərbaycanın tərəfindədir.*



Bu baxımdan susur, sadəcə, pərdəarxası ermənilərə hərbi, siyasi dəstək verməklə işlərini bitmiş hesab edirlər. Bu isə Paşinyan rejimini qane etmir. Ona görə də, Paşinyanın bir gün də 5 ölkənin siyasi rəhbərinə zəng edərək, onlardan açıq dəstək istəyib. Erməni lobbisindən maddi dəstək alan sapı özümüzdən olan baltalar da narahatdırlar. Bu isə onu bir daha təsdiq edir ki, "Xalq", "Vətən" milləti sadəcə Əli Kərimli, Cəmil Həsənli, Tofiq Yaqublu, Sevinc Osmanqızı, İlqar Məmmədov və digərləri üçün, sadəcə, siyasi alver üçün lazımdır. Əgər belə olmasa idi bir dəfə ağızlarını açıb Azərbaycanın haqq işini müdafiə edərdilər. Lakin ortada belə fakt mövcud deyil. Əksinə, dolayısı ilə Ermənistanın vəkili rolunda çıxış edirlər.

### Sevinc Osmanqızının ermənilərə dəstək verməsinin səbəbi bəlli oldu

Sevinc Osmaqızı erməni lobbisinin sifarişinə əsasən, hər məqamda Ermənistan hakimiyyətinin mövqeyinin "əsaslı" olduğunu bəyan edir, hətta utanıb-çəkinmədən "Paşinyan demokratik baş nazirdir və xalqının maraqlarına dəyər və hörmət göstən şəxsdir", - deyə bildirir. Özünün TV-sində isə Azərbaycanın prinsipial mövqeyini müdafiə etməyi "lüzum bilməyən" Sevinc Osmanqızı Ermənistanın və separatçıların "arqument"lərini sadalayır. Azərbaycana qarşı çirkin kampaniyaya dəstək verən S.Osmanqızı ölkəmizin haqlı və ədalətli olduğunu, Ermənistanın separatizmə dəstək verdiyini ifadə edə bilmir: "Tərəflər bir-birini ittiham etməkdədir. Ermənistan lideri Paşinyan hökumətin iclasında bildirib ki, Azərbaycan həm Ermənistanla sərhəddə, həm də Qarabağla təmas xəttində qoşunlar toplamaqdadır".

Bütün bunlar onu təsdiq edir ki, S.Osmanqızı Qarabağdakı separatçılara dəstək verməyi və Ermənistanın təbliğatçısı rolunu üzərinə bir missiya olaraq götürdüyünü gizlətmir. Hətta dolayısı ilə bununla fəxr etdiyinə eyham vurur. Niyə, səbəb nədir? Cavabı qısı və aydındı: Maliyyə asılılığı. Əgər tələblər və sifarişlər yerinə yetirilməsə, S.Osmanqızı aylıq qazancdan, yüksək şəraitli yaşamdan məhrum olunar. Ən pisi isə ABŞ-dan deportasiya oluna bilər. Çünki ABŞ qanunvericiliyinə görə, bir şəxs altı ay ölkədə qala bilər. S.Osmanqızı isə uzun illərdir ki, ABŞ-da yaşayır və heç kim ona gözün üstə qaşın var demir. Əksinə, mükafatlar verilir, şəninə təriflər yağdırılır. Lakin günün birində S.Osmanqızı ovucunda olanlardan məhrum oluna bilər, təbii ki, tapşırıqları yerinə yetirməsə. Ona görə də, S.Osmanqızı erməni lobbisinə "dayı" deyir, Paşinyanın tör-töküntüsünə isə Makronsayağı "bacı" söyləyir. Sabah o Ermənistana getsə, təəccüblənməyə dəyməz. Çünki erməni təbliğatçısı olanların yolu əksər hallarda İrəvandan keçir. Bir də ki, erməni lobbisi və ABŞ -dakı qaranlıq dairələr S.Osmanqızının qarşısında İrəvana getmək tələbini qoysalar, çətin ki, o, göstərişdən imtina etsin.

**İ.ƏLİYEV**

# Natiq Cəfərliyə kiçik xatırlatma, yaxud demaqoqluq natiqlik deyil



"Real partiyasının icra katibi Natiq Cəfərli siyasi partiyaların ideoloji kursu ilə əlaqədar növbəti "mülahizə"lərini ifadə edərkən siyasi savadsızlıqdan irəli gələn ciddi qüsurlara və bəsit yanlışlıqlara yol verib. O qeyd edib ki, "YAP iqtidar partiyası deyil, iqtidarda təmsilçiləri olan partiyadır". Görünür, Natiq Cəfərli ya "iqtidar partiyası" ifadəsinin anlamını bilmir, ya da insanların (ən azından, sosial şəbəkə istifadəçilərinin) siyasi nöqteyi-nəzərdən cahil olduqlarını düşünür. "İqtidar partiyası" seçkidə xalqın dəstəyini qazanaraq hakimiyyət funksiyasını yerinə yetirən siyasi təsisatdır. N.Cəfərlinin anlayacağı dildə, yəni loru və bəsit ifadə etsək, iqtidar partiyası hakimiyyətdə olan siyasi təşkilatdır. Görəsən, onun bunların hansından xəbəri yoxdur – YAP-ın hakim partiya olmasından, yoxsa iqtidar və hakimiyyət sözlərinin mənasından?! Yoxsa hər ikisindən?! Hakimiyyətə iddialı olan partiya nümayəndəsinin "hakimiyyət" məfhumunun anlamından bixəbər olması təkcə qəribə deyil, həm də öz adına ayıbdır. Digər tərəfdən, "iqtidarda təmsilçisi olmaq" nə deməkdir? Məgər Azərbaycanda koalision hökumət var?! Sözün açığı, partiya funksionerinin politoloji terminlərdən xəbərsizliyi trajikomik haldır". SİA xəbər verir ki, bu fikirləri YAP Mərkəzi Aparatının İnformasiya texnologiyaları və ictimaiyyətlə əlaqələr şöbəsinin müdiri Nurlan Qələndərli öz feysbuk hesabında yazıb.

O qeyd edib: "Real təmsilçisi yazır ki, "YAP-ın siyasi xətti, ideoloji kimliyi, istiqaməti məchuldur. Yeri gələndə millətçi-türkçü olurlar, bəzən "sollaşırlar", bəzən "sağa" dönüş edirlər, birdən "multikulturalist" donu geyinirlə". Bu yanaşma həm savadsızlıq, həm məlumatsızlıq, həm də qərəzlilik nümunəsidir. Çünki əvvəla, partiyanın İdarə Heyətinin qərarı ilə 2021-ci ildə təsdiq edilmiş proqramda YAP-ın ideoloji siyasətinin əsasları - bütün istiqamətləri öz əksini tapıb. Əgər N.Cəfərli bir anlıq inkarçılıq psixologiyasından qurtula bilsə və internetdən istifadə etmək imkanına malikdirsə, Yeni Azərbaycan Partiyasının rəsmi saytına daxil olaraq proqramda əksini tapmış ideoloji-siyasi məsələlərlə tanış ola bilər (http://yap.org.az/az/view/pages/9). N.Cəfərlinin pərəstiş etdiyi ölkələrdə deyildiyi kimi, "no comment!". İkincisi, YAP-ın ideoloji kursu partiyanın siyasi dəyərləri və prinsiplərində öz əksini tapıb ki, buraya müstəqillik, azərbaycançılıq, dövlətçilik, qanunun aliliyi, varislik və təkamül, sosial ədalət və insan amili, multikultural cəmiyyət, demokratik ənənələrin inkişafı aiddir. Əgər N.Cəfərli bu dəyərlər və prinsiplərin hansı ideoloji istiqamətə aid olduğunu müəyyənləşdirə bilmirsə, bunu natamam "iqtisadçı"nın siyasi savadsızlığı adlandıra bilərik. Deyək və agah olsun ki, bu azərbaycançılıq məfkurəsinə əsaslanan milli ideologiyadır. Burada liberalizmin də, mühafizəkarlığın da, yeni mühafizəkarlığın da (və s.) elementləri var, yəni universal ideoloji formuladır. Şərt deyil ki, "Real" kimi ideoloji siyasəti məhz Qərb nəzəriyyələrindən kopya edərək "ya liberal, ya da mühafizəkar", ya "sağ, ya da sol" deyə kəskin təsnifatlandırma aparaq. Universallığı inkar etmək idealizm deyil, qeyri-REALlıqdır".

"Nəhayət, N. Cəfərlinin "Çox istərdim ki, yeni siyasi dönəmdə əsas siyasi rəqibimiz olan YAP-ın ideoloji kimliyini bilək, ona uyğun da alternativlər yaradaq" ,- sözləri onun partiyasının hələ də öz ideoloji siyasətini müəyyən etməməsindən xəbər verir. Özlərini "hakim partiyaya rəqib" göstərənlərin siyasi-ideoloji kursunun bəlli olmaması, yumşaq desək, gülüş doğurur. Sosial şəbəkələrdə populizm və demaqogiya ilə məşğul olmaq əvəzinə, siyasi-ideoloji məsələlər üzərində işləmək məqbul olar. Demaqoqluq natiqlik deyil, elə deyilmi, Natiq Cəfərli?!" ,- deyə N.Qələndərli bildirib.

**Ayşən Sadıxzadə**



Elçin Bayramlı

# Pullu yolla, yoxsa pulsuz yolla gedək?

***Bir neçə gün öncə Nazirlər Kabineti Bakı-Quba-Rusiya yolunun bir hissəsinin ödənişli olması barədə qərar qəbul edib. Qərara əsasən, Bakı–Quba–Rusiya sərhədi yeni avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 fevral tarixli 3692 nömrəli Sərəncamına əsasən Tağıyev qəsəbəsindən başlayaraq tikilən yeni 150 kilometrlik avtomobil yolunun 129 kilometr hissəsi ödənişli yol kimi müəyyən edilib. Hazırda pullu edilməsi nəzərdə tutulan M-1 yolunda (Bakı–Quba–Rusiya sərhəddi istiqaməti) işlər tamamlanmaq üzrədir. 4 hərəkət zolaqlı olacaq yolun hər bir zolağının və çiyinlərin eni 3.75 metr, ayırıcı zolağın eni 5 m olmaqla yol yatağının eni 27.5 metr təşkil edir.***

Pullu yollar vaxta və yanacağa qənaət etməyə imkan verir. Belə yolların öz standartları var. Belə ki, bu yollarda kəsişmələr olmamalı və sürət limiti daha yüksək olmalıdır. Həmçinin bu yollar yaşayış yerlərindən kənardan keçməlidirlər. Belə olan halda, sürücülər yanacağa və zamana qənaət etmiş olur, dövlət büdcəsi isə gəlir əldə edir. Lakin pulsuz yol da ödənişli yollar kimi təmirli olmalıdır. Həmin yol da digəri kimi mütəmadi olaraq təmir edilməlidir. Pullu yol pulsuzdan maksimum 10% qısa ola bilər.

"Avtomobil yolları haqqında" qanunda qeyd olunur ki, ölkə ərazisində pullu yollar yalnız onların pulsuz alternativi olduğu halda çəkilə bilər. Eyni istiqamətdə seçim üçün yollar olmasa, hansısa yolu ödənişli etmək olmaz. O ki qaldı qiymətlərə, Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, tariflər yük maşınları, sərnişin avtobusları, minik avtomobilləri, qoşqular və digər nəqliyyat vasitələri üçün ayrı hesablanacaq. Dünyanın çox ölkələrində belə yollardan istifadə edilir. Lakin şərtlər və qiymətlər fərqlidir.

ABŞ-ın 90 min kilometrlik federal yollarının 10 min kilometri ödənişlidir. Ödənişlər 50 sentdən başlayır və adətən körpü və tunel olan ərazilər üçün alınır.

Rusiyada asvalt yolların uzunluğu 1 milyon km-dən çoxdur. Bunun yarım milyon km-ı magistral yoldur. 11 federasiya subyektinin ərazisində 1100 km federal və regional əhəmiyyətli yol ödənişlidir.

Avropada da pullu yollarda haqq ümumi yolun uzunluğuna görə deyil, yalnız keçilən tunel, körpü və estakadalara görə alınır. Yəni, bu tikintilər olmayan yerlər üçün pul hesablanmır. Tariflər nəqliyyat vasitəsinin növünə və məsafəyə görə hesablanır.

Almaniyada avtomobil yollarının çox böyük hissəsi pulsuzdur. Yalnız ümumi çəkisi 7,5 tondan çox olan yük maşınları avtomobil yolu rüsumuna tabedir. Almaniyada yalnız iki tunel- "Herren" tuneli (2 avro) və "Varnov" tuneli (4 avro) ödənişlidir. İngiltərədə müəyyən körpüləri, tunelləri keçmək, həmçinin paytaxt Londonun mərkəzinə daxil olmaq üçün ödəniş alınır. Məsələn, dənizin altından çəkilmiş və Fransa ilə Britaniyanı birləşdirən 35 km-lik La-Manş tunelindən keçid haqqı 10 avrodur.

Danimarkada avtomobillər və motosikletlər avtomobil yollarından istifadə etmək üçün pul ödəmirlər. Ödəniş yalnız Storebaltsbroen və Oresundsbroen körpülərini keçmək üçün tələb olunur. Magistral yollarda çəkisi 12 tondan çox olan nəqliyyat vasitələri üçün ödənişlər tətbiq edilir.

Gürcüstanda ödənişli yollar yoxdur. Bu ölkədə maggistral yolların keçiyfiyyəti və standartları hər hansı bir yolun pullu edilməsinə müvafiq deyil.

İranda asfalt yolların uzunluğu 100 min km-dən çoxdur. Qəzvin-Tehran yolu pulludur.

Türkiyədə bəzi yollar pulludur. Məsələn, 188 kilometrlik Ankara-Bolu yolu üçün bizim pulla 1 manat ödəniş tələb olunur. Pulsuz yolda benzinə xərclənən vəsait daha çox olduğundan Türkiyədə bir çox sürücülər pullu yola üstünlük verir.

Azərbaycanda pullu yolun hər km-I üçün 3-5 qəpik civarında rüsum müəyyənləşdirilməsi ehtimal olunur. Bu o deməkdir ki, 130 km ödənişli yoldan istifadə sürücülərə təxminən 5 manata başa gələcək.

Qeyd etməliyəm ki, Bakı-Ələt-Astara yoluna paralel yol çəkildikdən sonra o istiqamətdə də pullu yolun tətbiq olunması gözlənilir. İlk pullu yolun o olması nəzərdə tutulurdu, lakin sonra həmin yolun hələlik pulsuz olması qərara alındı.

Hər bir halda pullu yollar ancaq pulsuz alternativləri olan yerdə olmalıdır və hər bir vətəndaşın ölkənin bir nöqtəsindən digərinə pulsuz şəkildə gedə bilməsi hüququ qorunmalıdır. Əlbəttə, daha tez, daha sürətli getmək istəyən imkanlı vətəndaşlar pullu yolu seçə bilərlər və bundan dövlət büdcəsinə də qazanc əldə edilmiş olar.

***Nazirlər Kabinetinin qərarına əsasən, 2023-2024-cü tədris ilində ölkənin hər bir ümumi təhsil müəssisəsi üzrə vahid məktəbli geyimi tətbiq ediləcək. Həmin qərarda məktəblər tərəfindən 4 cür geyim formasından birinin seçilməsi nəzərdə tutulur. Ötən tədris ilində hər bir ümumi təhsil müəssisəsinin Pedaqoji Şurası bununla bağlı müvafiq qərar qəbul edib.***



# Forma bazarı: Satan razı, bəs alan?

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azad sahibkarlığın və liberal iqtisadiyyatın təşviqi" istiqaməti çərçivəsində hazırlanıb.*



Məktəbli formaları bəlli satış mərkəzlərində təklif edilirdi və məktəblərdə bununla bağlı xüsusi tələblər var. Belə ki, məktəb rəhbərliyi valideynlərə yeni məktəbli formasını məhz məktəbin tələb etdiyi mağazadan almağı tapşırır. Tələbin yerinə yetirilib-yetirilməməsini öyrənmək üçün də həmin mağazadan foto və ya qəbz tələb edilir. Aydın görünür ki, məktəb rəhbərliyi mağazanın satışından payına düşən faizi alır.

Bəzi məlumatlara görə, keçən il yeni formanın rəngini seçib şagirdlərə aldıran məktəblər bu il həmin formanı qəbul etmirlər. Valideynlərə məktəbin tapşırdığı mağazadan yeni rəng forma almağı tapşırıblar. Hətta 4 rəng formanı bəyənməyib çəhrayı, bənövşəyi rəngdə forma tələb edən məktəblər də var.











Təyin edilmiş satış nöqtələrindən və ayrı-ayrı mağazalardan fərqli olaraq Sədərək Ticarət Mərkəzində formalar nisbətən münasib qiymətə təklif edilirdi. Avqust ayının ilk ongünlüyündə bu bazarda məktəbli formaları Bakı Tikiş Evinin təklif etdiyi qiymətlərdən dəfələrlə aşağı qiymətə satılırdı, üstəlik geyimlər BTE-nin təklif etdiyindən qat-qat keyfiyyətli parçalardan hazırlanmışdı.

BTE-nin xüsusi satış nöqtələrində 15 manata təklif etdiyi köynəyi Sədərəkdəki satıcılar 8-10 manata təklif edirdi. BTE-də ətək və şalvar 25 manatdan təklif edilirdi, Sədərəkdə ölçüsünə görə 10-15 manat qiymət qoyulmuşdu. Həmin ərəfədə BTE-nin 30 manata satışa çıxardığı jaketi Sədərəkdə ölçüsündən asılı olaraq 12-18 manata satırdılar. Lakin məktəblərin açılmasına az qalıb deyə indi Sədərək Ticarət Mərkəzində də məktəbli geyimlərinin qiymətləri artıb. İki gün əvvəl baş çəkdiyimiz bazarda qiymətlər süni şəkildə qaldırılıb. İndi 8-10 yaşa uyğun olan ətəkləri 15-28 manat arasında, köynəyi 13-18 manat aralığında, 16-17 yaşa uyğun şalvarları 25-40 manat arasında, köynəkləri 15-25 manat aralığında satırdılar.

Ümumiyyətlə, dəfələrlə bu mövzuda yazarkən vahid formanın, əslində, vahid olmadığından da yazmışam. Bazar və dükanlarda vahid forma adı altında necə formada, neçə rəngdə paltar təklif edilir. Boz şalvar və ətəyin mən müşahidə etdiyim 3-4 tonu, çaları vardı, mavi köynəyin də həmçinin. İki qarış uzunluğu olan 6-7 yaşa uyğun məktəbli ətəyi də 25 manata təklif edilir, 15-16 yaşa uyğun olan ölçü də. Qiymətlər ölçüyə adekvat deyil.

Yeri gəlmişkən, məktəbli formasının ölçülərində də ciddi problemlər var. Xüsusilə, 9-10-11-ci sinif uşaqları üçün geyim ölçüləri düz gəlmir. Boyu uca və ya çəkisi çox olan uşaqlar üçün təklif edilən ən böyük ölçü belə uşaqların ölçüləri ilə üst-üstə düşmür. Qolu uyğun gələn köynəyin bədəni uyğun olmur, beli uyğun gələn şalvarın ayağı qısa qalırdı. Forma tikişinə başlamazdan öncə bu sahədə ciddi bir monitorinq aparılmalı, məktəblilərin ölçüləri, boyları haqqında orta statistika təyin edilməli idi.

Valideynlər də bu vəziyyətdən narahat idi. 9-cu sinifdə oxuyan oğluna forma almağa gələn Səidə Məhərrəmova oğlunun çəkisinə görə uyğun forma tapa bilmədiyindən şikayətlənirdi: "Bakı Tikiş Evinin bütün satış nöqtələrinə getdik, ayrı mağazalarda da satırlar, hamısına baxdım, amma oğluma uyğun forma tapa bilmədim. Hamısının bədəni dar gəldi. Son çarə kimi bazara gəlmişəm, deyilər sexlərin istehsal etdiyi formalar bir az böyük olur, amma yenə tapa bilmirəm. Oğlum kökdür deyə sifarişlə tikdirim? Axı bunları nəzərə almalı idilər, bütün uşaqlar eyni boyda, eyni çəkidə deyil".

6 yaşlı qızına ətək alan başqa bir ana şikayətlənir: "Baxın, qızımın boyu balacadır, bədəni də arıq. Bu bədənə 2-3 qarış parçadan ətək tikiblər, qiyməti də 25 manata. Fabrikin satış nöqtələrində standart qiymət qoyublar, kiçik ölçü də eyni qiymətədir, böyük ölçü də. Məncə, bu doğru deyil, istifadə edilən parçanın metrəsinə qoyulan qiymətlə tənzimlənməli idi hazır ətəklərin qiyməti. Satış nöqtələrində 25 manata satılan eyni ətəyi buradan 15 manata aldım."

Forma satışı ilə məşğul olan Hacı Hüseynəliyevin sözlərinə görə, qiymətləri qaldırmaq məcburiyyətində qalıblar: "Əvvəl satdığımız qiymətə verəcəkdik, çünki bazara varlı adam gəlmir, ehtiyaclı adam gəlir. Amma bazarı sel basanda nə qədər malımız zay oldu, heç nəyə yaramadı, məcbur qiyməti qaldırdıq ki, az da olsa ziyanımızı qarşılaya, ödəyə bilək. Yenə də insaflı satırıq, görürük valideynin imkanı yoxdu, endirim edirik. Hamı bir-biri kimidi, başqasına da əl tutmaq lazımdır. Bax, bu ətəkləri görürsüz? (kiçikölçülü ətəyi göstərir) Bunları fabrikin mağazasında qoyublar 25 manata. İnsafsızlıq edib bunu mən necə 25 manata satım? Yarım metr parçası var. Mən də 15 manata satıram. 1 ay əvvəl bunu 10 manata, 8 manata da satmışam. Sex malıdır deyirlər. Ona görə ucuz satırsan. Nə olur ki, sex malı olanda? And olsun allaha, elə türk malı var ki, 100 dənəsini bizim 1 sex malına dəyişmərəm. Parçası da keyfiyyətlidir, tikilişi də. Bax, astar hissəsindən bilinir tikişin keyfiyyəti. Fabrik malının eləsi var astarı sökük, biçimi əyri, tikişi səhvdir. Əsas olan harada tikilməyi yox, keyfiyyətidir".

**Lalə Mehralı**

REPORTAJ

SON SƏHİFƏ

SƏS

12 sentyabr
2023-cü il

# Qadağan olunmuş yerlərdə siqaret çəkənləri hansı cəzalar gözləyir?



HÜQUQŞÜNAS AÇIQLADI

***"Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanun ilə qadağan edilmiş digər yerlərdə tütün çəkməyə görə otuz manat məbləğində cərimə tətbiq edilir. Yetkinlik yaşına çatmayanlara tütün məmulatı almaqla, verməklə, tütün məmulatından istifadəni təklif və ya tələb etmək yolu ilə onların tütündən istifadə prosesinə cəlb edilməsi yüz manat məbləğində cərimə oluna bilər. Tütün məmulatları tullantılarının ətraf mühitə atılmasına görə əlli manat məbləğində cərimə inzibati tənbeh tədbiri tətbiq olunur". Bu sözləri SİA-ya açıqlamasında hüquqşünas Şamil Paşayev deyib.***

Onun sözlərinə görə, müəssisələrdə, idarələrdə, təşkilatlarda tütün çəkmək üçün xüsusi ayrılmış yerlərin sanitar-gigiyenik normalara və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi tələblərə cavab verən şəkildə təchizinin və görünən yerlərdə "tütün çəkmək qadağandı işarəsi olmalıdır: "Bu işarənin olmaması da inzibati məsuliyyət yaradır.

Vəzifəli şəxslər dörd yüz manat məbləğində, hüquqi şəxslər isə min manat məbləğində cərimə edilir. Hava nəqliyyatında tütün çəkməyə görə yüz manat məbləğində cərimə edilir. Dəmir yolu nəqliyyatında müəyyən edilməmiş yerlərdə tütün çəkməyə görə qırx manat məbləğində cərimə edilir. Dəniz və çay nəqliyyatında müəyyən edilməmiş yerlərdə tütün çəkməyə görə qırx manat məbləğində cərimə edilir.

Müntəzəm şəhərdaxili (rayondaxili), şəhərlərarası (rayonlararası) və beynəlxalq marşrutlar üzrə hərəkət edən avtobusda, sərnişin daşımaları üzrə ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitəsində və taksi minik avtomobilində tütün çəkilməsinə qırx manatdan əlli manatadək məbləğdə cərimə edilir".

**Ayşən**

# Nəqliyyatdakı sıxlığın qarşısını necə ala bilərik?



EKSPERT AÇIQLADI

***"Biz bu gün Bakı şəhərində tıxacların tamamilə aradan qaldırılmasından ayrıla bilməyəcəyik. Bunun obyektiv və subyektiv səbəbləri var". Bu sözləri SİA-ya açıqlamasında nəqliyyat eksperti Eldəniz Cəfərov deyib.***



Ekspert sözlərinə belə davam edib: "Biz sadəcə tıxacları yaradan müəyyən subyektiv səbəbləri aradan qaldıra bilərik. Amma obyektiv səbəblər var ki, onları aradan qaldırmaq artıq mümkün deyil. Bu Bakı şəhərinin infrastrukturu ilə bağlıdır. Vaxtilə yolların yol infrastrukturunun qurulması səhv olub. Bugün də baxırıq ki yolların qaraldılması və butulka effektinin yaranması hələ də davam edir. Hər hansı bir qurum istədiyi vaxt Bakı şəhərinin istədiyi yolunda sökünt-tikinti işlərini apara bilir, yolları daraldır. Avtomobil yolları belə zəbt olunub. Orada müəyyən obyektlər, istər yaşayış, istər qeyri-yaşayış obyektləri tikilir".

Eldəniz Cəfərov sözlərinə belə davam edib: "Parklanma məsələsi hələ tam həll edilməyib. Yaşayış və qeyri-yaşayış obyektlərinin parklanma yerləri hələ də təşkil olunmayıb.

Həm də Bakı şəhəri iri sənaye şəhəridir, Bakının həm də zəngin mədəni həyatı var, həm də avtomobillərin sayı çox olur. Bölgələr də əsasən Bakı şəhərinə axışıb və bir çox işlər Bakıda görülür. Nazirliklər, digər qurumlar və universitetlər burada cəmləşdiyinə görə bu tıxaclara qalib gələ bilməyəcəyik. Amma bunun üçün də müvafiq qurumlar hərəkətə keçməlidir. Düşünürəm ki, onlar bunu etməlidirlər.

İlk növbədə ictimai nəqliyyatın avtobus seqmentini gücləndirməli, marşruta buraxılan avtobusların sayını artırmalı və ictimai nəqliyyatı vətəndaşlar üçün əlçatan etməlidirlər. Bunun üçün dayanacaqlardan yığışdırılan heç olmasa o ödəmə terminalları yenidən öz yerinə qaytarılmalıdır ki, vətəndaşlar ictimai nəqliyyata üstünlük versinlər, fərdi avtomobillərdən az istifadə etsinlər.

Ümumilikdə, Bakıda tıxacların sayının azaldılması və yol hərəkətinin təhlükəsizliyinin təmin etməsi ilə bağlı dövlət proqramı mövcuddur. Bu 2019-2023-cü illəri əhatə edən bir dövlət proqramıdır. Bu bir növ yol xəritəsidir. Həmin yol xəritəsinə əsasən müvafiq qurumlar hərəkət etsələr, düşünürəm ki, müəyyən nəticə əldə edə bilərlər".

**A.Vəli**


# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN

6 aylıq 79.20 AZN

1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!




Ağasif Rəhimov və Raziyə Seyidli (qarışıq cütlük), Nəzrin Zeyniyeva, Zəhra Rəşidova, Anahita Bashiri (yeniyetmələrdən ibarət qrup), Daniel Abbasov və Murad Rəfiyev (cütlük) yarışı qızıl medalla başa vurublar.

# Azərbaycan gimnastlarından qızıl medal

Akrobatika gimnastikası üzrə Azərbaycan yığması Polşanın paytaxtı Varşavada keçirilən "Wars and Sawa Cup" beynəlxalq turnirinin qalibi olub. Bu barədə Azərbaycan Gimnastika Federasiyası məlumat yayıb.


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**